# Mədəni *Quran dünyagörüşü*




BİFİ Müxtəsər kitablar seriyası

# MƏDƏNİ QURAN DÜNYAGÖRÜŞÜ

**Əbdülhəmid əbu Süleyman**

Beynəlxalq İslam Fikri İnstitutu

"İdrak" İctimai Birliyi

**Mədəni Quran dünyagörüşü (Azeri)**
*Əbdülhəmid əbu Süleyman*
*BİFİ Müxtəsər kitablar seriyası*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1443 (hicri) / 2022 (miladi)
*Paperback* ISBN: 978-9952-8445-1-1

**The Qur'anic Worldview:**
**A Springboard for Cultural Reform (Azeri)**
*AbdulHamid Ahmad AbuSulayman*
*IIIT Books-in-Brief Series*

© The International Institute of Islamic Thought (IIIT)
1434AH / 2013CE
*Paperback* ISBN: 978-1-56564-595-0
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
fəlsəfə üzrə fəlsəfə doktoru
Elvüsal Məmmədov
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-535/Q)

Bütün hüquqlar qorunur.

## Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) Müxtəsər kitablar seriyası

**Beynəlxalq İslam Fikri İnstitutunun icmal kitablar seriyası institutun əsas nəşrlərinin ixtisarla verilmiş variantlarından ibarətdir. Məqsəd oxucuda orijinalın əsas məzmunu haqqında ümumi təsəvvür yaratmaqdır. Genişhəcmli nəşrlərin icmalı hesab olunan bu əsərlər oxunaqlıdır, vaxta qənaət etməyə imkan verir, oxucunu gələcəkdə orijinalla tanış olmağa həvəsləndirir.**

Əbdülhəmid əbu Süleymanın **"Mədəni Quran dünyagörüşü: mədəni islahatçılığın əsası"** kitabı 2011-ci ildə nəşr edilmişdir.

Tutarlı müddəaların toplandığı bu əsərdə İslam dünyasının tənəzzülü, müsəlmanların nəzərində Quran dünyagörüşünün zəifləməsi səbəbləri və bu tənəzzülün aradan qaldırılması yolları öyrənilir. Az adam tapılar ki, müəllifin diaqnozu ilə razılaşmasın. Müəllif haqlı olaraq göstərir ki, istənilən həqiqi və davamlı dəyişiklik üçün Quran dünyagörüşünün dirçəldilməsi olduqca zəruridir. Məhz bu gerçəkliyi nəzərə almaqla, Quran və Sünnənin prinsiplərinə əməl etməklə ilk müsəlman cəmiyyəti təsiri bu gün də hiss olunan uğurlara imza atmışdı. Müsəlmanlar uzun müddətdir ki, düşdükləri vəziyyətin fərqindədirlər. Müəllif təkidlə qeyd edir ki, Quran dünyagörüşü əsasında müsəlman kimliyinin yenidən formalaşdırılması dövrümüzün əsas tələbi, Müsəlman ümmətinin gələcəkdə davamlı inkişafının başlıca şərtidir.

# Quran dünyagörüşü islahatçılığın əsasını təşkil edir

Hər bir mədəni sistemin öz dünyagörüşü forması vardır. Bu dünyagörüşü formasına həmin sistemin metodologiyası funksionallıq qazandırır. Hər metodologiya isə öz prinsipləri ilə seçilir. Hər hansı bir millətin mədəni dünyagörüşü formasını işlək vəziyyətə gətirən güc metodologiya, yəni düşünmə üsullarıdır.

Mədəni islam dünyagörüşü prinsip, dəyər və anlayışlar təsis edən "kök" rolunu oynayır. Bu prinsiplər, dəyər və anlayışlar islam dünyagörüşünün mahiyyətini, istinad bazasını, ali məqsədlərini əks etdirir.

İslam dünyagörüşünün strukturu, metodologiyasının prinsip və dəyərlərinə lazımi diqqətin yetirilməməsi bu metodologiyadakı anlaşılmazlıq və təhriflərin müəyyən edilməsini çətinləşdirir. Metodoloji ətalət və "qısırlığ"ın, çoxluğuna baxmayaraq, prinsip və dəyərlərin donuqluğunun kökündə yatan ən mühüm səbəblərdən biri də məhz budur.

Müsəlman metodologiyası, dəyər və anlayışları Quran dünyagörüşünə söykənir. Məhz Quran dünyagörüşü fərd və cəmiyyətin mənəvi gücünü müəyyənləşdirəcək ideoloji stimulu təmin edən "kök", "torpaq" və "mənbə" rolunu oymayır. Baş verən proseslərdə fərdlər və cəmiyyətə istiqamət verən, proseslərin mədəni abadlaşdırma tərəfini müəyyənləşdirən də məhz bu dünyagörüşü formasıdır.

Bunun üçün əgər bu dünyagörüşü forması aydın və konkret, asan başa düşülən, ziddiyyət və qüsurlardan uzaq olarsa, fərd və cəmiyyəti hərəkətə gətirən aktiv tərbiyəvi-ideoloji və mənəvi gücə çevriləcəkdir. Yox, əgər bu dünyagörüşü mübhəm, kortəbii və mövhumat səciyyəli olarsa, ümmətin sahib olduğu prinsiplərin fərdi və sosial həyata təsiri olmayacaqdır.

Müsəlmanların şüursuzluğu, islam dünyagörüşü – universal dünyagörüşü forması ilə az maraqlanmaları ümmətin keçmişdə və indi düçar olduğu tənəzzül və geriliyin səbəbi kimi özünü göstərir.

İslam dünyagörüşünün tənəzzülündə əhəmiyyətli dərəcədə rol oynamış səbəblərdən biri də müsəlman ziyalıların Qərb mədəniyyətini ondakı həyata və dünyaya baxış formasını öyrənmədən mənimsəmələri olmuşdur.

Bu səbəbdən əgər müsəlman ziyalılar "ayılmazlarsa", mütəfəkkir, pedaqoq və islahatçılar ciddi, konstruktiv elmi-tənqidi şəkildə keçmiş irs və mədəniyyətlərinin "qovluqlar"ını açmazlarsa, ümmətin məruz qaldığı gerilik və tənəzzülün qarşısını ala bilməyəcəklər.

Onlar dərk etməlidirlər ki, açılması lazım olan ilk "qovluq" islam dünyagörüşü qovluğudur. Çünki məhz bu dünyagörüşü həm insan oğlunun ideoloji "özül"ünü, həm də fikri-mənəvi stimulu təmsil edən baza hesab olunur. Əgər onlar ümmətin dünyagörüşünü anormallaşdıran, donuq və mübhəm hala gətirən səbəbləri müəyyənləşdirə bilməsələr, fəal, stimullaşdırıcı islam dünyagörüşünün bərpa edilməsində, ümmətin mənəvi-elmi sərvətinin aktiv vəziyyətə gətirilməsində iştirak etmələri mümkün olmayacaqdır. Axı məhz bu dünyagörüşü islam missiyasını reallaşdıra, mənəvi abadlaşdırmanı təmin edə bilər. Çünki bu dünyagörüşü və ideoloji metodologiyası özül funksiyasını icra edir.

## Universal islam dünyagörüşü forması necə təhrif olunub?

Şanlı keçmişimizdən, Peyğəmbər və erkən dövr islam mədəniyyətinin nailiyyətlərindən xəbərimiz vardır. Sonralar ümmətin düşdüyü və indi də əziyyət çəkdiyi acınacaqlı vəziyyət

də bizə məlumdur. Biz o dövrün insanlarının dünyagörüşünü başa düşməsək, həmin əsrlərdə qazanılmış nailiyyətləri, uğurları izah edə bilməyəcəyik. Söhbət o dünyagörüşündən gedir ki, müsbət stimul, ideoloji-mənəvi hərəkətverici qüvvə rolunu oynamış, inkişaf meydana gətirmişdir. Biz həmin inkişafın nəticələrini indi də görürük. İnkişaf nəticəsində xalqların təkcə din və mədəniyyətləri dəyişilməmiş, həm də dilləri müsbət təsirə məruz qalmışdı.

Bizim və bütün bəşəriyyətin cavab tapmalı olduğu sual budur ki, həmin dövrdə insanların sahib olduqları dünyagörüşü nədən ibarətdir, hansı baza üzərində qurulmuşdur, necə meydana çıxmışdır. Nə üçün və necə? Əsrlər keçdikcə bu dünyagörüşünün ümmətə təsiri azalmış və ümmət aktivlik və stimul axtarışına çıxacaq qədər zəifləmiş, öz mədəni funksiyasından məhrum olaraq “künc”ə sıxışmışdır.

Bu suallara cavab verməzdən əvvəl qeyd etməliyik ki, erkən dövr müsəlmanlarının dünyagörüşü indiki müsəlmanların dünyagörüşü ilə eyni olmamışdır. İndiki dünyagörüşü forması nəzəri və neqativ olub, iddia və illüziyalardan ibarətdir; müsəlman fərdə “öz”ü ləğv edəcək qədər diktəedici və kortəbii şəkildə məsuliyyət yükləyir.

Bu cür dünyagörüşü və ritorika bir çox tərəflərinə görə neqativ olub, təcridedici və icbari səciyyə daşıyır. Nəticədə bilik əldə etmək həvəsi itir, təbii qanunauyğunluqlar öyrənilmir, mədəni abadlaşdırma və varislik layihəsində iştirak əzmi yox olur. Belə bir psixoloji vəziyyət, təbii ki, passiv, ümidsiz, zəif, məqsədsiz yaşayan ümmət meydana çıxaracaqdır. Bu ümmətə xudbinlik, neqativlik, əməkdaşlıq ruhunun zəifliyi, kollektiv şüurdan uzaqlıq xasdır. Elə isə bu cür diktəedici, qorxuducu “özünüləğv” ritorikasının etiraz və mənfi əks-reaksiya doğurması, şüursuz şəkildə özünümüdafiəyə səbəb olması təəccüblü

deyildir. Bu vaxt "egosentrizm" (pisliyi əmr edən bioloji-heyvani nəfs) meydana çıxır. Sonuncu isə fərdiyyətçiliklə, özünəqapanma ilə, eqoizmlə seçilir.

Mədəni Quran dünyagörüşünə gəlincə, ilk dövrlərdə səmərəli və məhsuldar olmuşdur. Çünki stimullaşdırıcı təbiəti ilə seçilir, fərdi və kollektiv müstəvidə "özünütəsdiq"i təmin edirdi. Bu dünyagörüşü formasında sevgi, istək və qane hissləri qorxutma və qorxuya qalib gəlir. Bununla da, insan mədəni şahidliyi həyata keçirməklə, fərdi və ictimai müstəvidə aktiv icraçılıq nümayiş etdirməklə həyatda özünü təsdiqləyir. Bu, universal Quran mədəni dünyagörüşünün özüdür. Bu dünyagörüşü onun fitri-mənəvi, fiziki tələbatlarına cavab verir. Məcburiyyət və ədalətsizliyə əsaslanan, pisliyi əmr edən ani heyvani istəklər əsas götürülmür. "Güclü haqlıdır" qaydası bu dünyagörüşündə qəbuledilməzdir. Fiziki-maddi ehtiyacların mümkün təmininə gəlincə, bu, fitrət və vicdanla səsləşən sağlam üsullarla baş verir. Bu üsullar ədalət, yaxşılıq, qardaşlıq, sülh dəyərlərinə söykənir. Bu dünyagörüşündə "Güc haqqındır" qaydası məqbuldur (vicdan və ya özünü qınayan nəfs). Bu minvalla insan oğlu sağlam, fitri yollarla özünü təsdiqləyir, rəbbini razı salır. Sağlam fitri üsullar fiziki-mənəvi ehtiyaclara cavab verir, mədəni cəmiyyətin qurulmasını təmin edir. Allah Təala buyurur:

"(Ya rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz" (ər-Rum, 30).

Peyğəmbər və Raşidi xəlifələri dövründən sonra səhabələr nəslinin yox olması ilə islam dünyagörüşünü tədricən bürüyən "duman" meydana çıxdı. O səhabələr nəslinin ki, onları nümunəvi müəllim və təbliğatçı vasitəsilə Qurani-Kərim tərbiyə etmişdi. Yaşlanma, dünyadan köçmə və şəhid düşmə halları

bu nəslin tükənməsinə səbəb olmuşdu. Bədəvi ərəb qəbilələrinin əks-inqilabı nəticəsində yaranan müharibə vəziyyəti, bu üsyanın yatırılmasından sonra dövrün azğın Sasani və Bizans imperiyaları ilə aparılan hərbi kampaniyalarda iştirak səhabələrin sayını əhəmiyyətli dərəcədə azaltmışdı. Bu səbəbdən fəth ordularına ərəb qəbilələrindən əsgər toplanmağa başlandı. Bu qəbilələr tam şəkildə "tərbiyə" edilməmişdi. Nəticədə bədəvi ərəblər islam ümmətinin ordusu və hərbi qüdrətində, siyasi həyatında üstünlük əldə etmişdilər. Bu qəbilələr, dediyimiz kimi, islamı yenicə qəbul etmişdilər, irqçi-qəbilə elementləri onlarda güclü idi.

Bədəvilərin gənc ümmətin siyasi həyatında hakim qüvvəyə çevrilməsinin, siyasi olanın dini olana nəzarət etməsinin nə olduğunu və bu vəziyyətin doğurduğu despotluq və korrupsiyanı yaxşı dərk etməliyik. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* bu barədə əvvəlcədən xəbər vermiş, özündən sonra sapqınlıq və fitnə-fəsadın meydana çıxacağını bildirmişdir. Bu fitnə-fəsadın siyasi-ictimai və iqtisadi həyata, ən əsası isə müsəlman dünyagörüşünə təsiri dağıdıcı olmuşdur.

Bədəvi ərəb qəbilələri Ərəbistan yarımadasının səhra təbiəti səbəbindən həm Cahiliyyət dövründə, həm də islam meydana çıxdıqdan sonra mədəni çatışmazlıqdan əziyyət çəkirdilər. Çünki bu yarımada geniş səhraları və hündür dağları səbəbindən o dövrün mədəni dünyasından təcrid edilmişdi.

Bədəvi ərəb qəbilələrinin hakim mövqe tutmasının siyasi həyata mənfi təsirləri Raşidi xilafətinin yıxılması və Əməvilərin hakimiyyətə gəlməsindən sonra özünü göstərdi. Həmçinin bu qəbilələrdəki bədəvilik, Cahiliyyət dövründən qalma irqçilik anlayışı səhabələrin – ənsar və mühacirlərin fəaliyyətində əks olunmuş Quran mədəni dünyagörüşündə "bulanma"nın yaranmasına səbəb oldu. "Bədəvi ərəb qəbilələrinə xas vəziyyətin

diktə etdiyi qarmaqarışıq ritorikanın mənbə rolunu oynadığı bədəvi dünyagörüşü islam dünyagörüşünün yerini tədricən tutmağa başlamışdı".

Nəticə etibarı ilə, real siyasi həyatda islam dünyagörüşü bir çox cəhətdən "bulanıqlıq" və "əlilliy"ə məruz qaldı. Bu da öz növbəsində dinin tədricən hakim təbəqənin maraqlarına tabe etdirilməsinə, dövlət qurumlarının tənəzzül edib despotizmin möhkəmlənməsinə, ictimai, siyasi və iqtisadi həyatda korrupsiyanın yayılmasına şərait yaratdı.

Bədəvi Cahiliyyət irsi, ümmətdaxili tarixi proseslər, xalqların islamı qəbul etməsi, müsəlman mədəniyyəti və dünyagörüşünün həmin xalqların mədəniyyətləri ilə, xüsusən Aristotelin formal məntiqinə əsaslanan yunan mədəniyyəti ilə inteqrasiyası – bütün bunların nəticəsində ideoloji-dini qarmaqarışlıq daha da artmış, vaxt keçdikcə islam mədəni dünyagörüşü daha çox təhrifə məruz qalmışdır. Bu da öz növbəsində ümmət ruhunun daha çox zəifləməsi ilə nəticələnmişdi. Bu vəziyyət Əməvilər sülaləsinin hakimiyyətinin sonlarına yaxın daha qabarıq şəkildə özünü büruzə vermişdi. Ümmətin siyasi bütünlüyü pozulmuş, əsas prinsiplər arxa plana keçmişdi. Halbuki başlanğıcda bu prinsiplər xəlifəlik (varislik) və tövhid ruhu ilə islam mədəniyyətini irəliyə aparmış, fitrəti qidalandırmış, icraçılıqda əxlaqı əsas tutmuş, müsəlmanlara ədalət, qardaşlıq, şura, azadlıq və məsuliyyət şüuru aşılamış, yer üzünü abadlaşdırma vəzifəsi yükləmişdir.

Qeyd edək ki, mədəni geriləmə ilə eyni vaxtda maddi yığım özünü göstərmişdir. Yəni, vaxt keçdikcə islam mədəniyyətində maddi rifah artmışdı. Bu səbəbdən başlanğıcda bu maddi rifahın fonunda mənəvi geriləmə hiss olunmamışdı. Amma bu geriləmə, yəni islam dünyagörüşünün təhrifə uğraması ümməti kor etmiş, ondakı həvəs və məqsədyönlülüyü öldürmüş, inkişaf, yaradıcılıq və abadlaşdırma "təkər"ini hərəkətdən saxlamışdır.

Əgər islam fikrinin tarixi gedişini diqqətlə təhlil etsək, görəcəyik ki, ümumiyyətlə, bu amillərin, xüsusilə, formal yunan məntiqinin mifoloji-dini yunan fəlsəfəsinin həmin gedişata, dini, fikri və mədəni proseslərə mənfi təsiri olmuşdur. Ümmətin alim və filosoflarının düşüncə tərzi bundan ciddi şəkildə təsirlənmişdir.

## Ağılın dinlə əksliyi: fantaziya yoxsa həqiqət?

İslam fikrində tarixi şəraitin diktə etdiyi ən ciddi təhriflərdən biri ağılın dinə əksliyi problemidir. Bu problem islam mədəni dünyagörüşünə sirayət etmiş formal-sofistik ideyalara əks-reaksiya olaraq meydana çıxmışdır. Əslində bu problem, islam və dünyagörüşü formasından çıxış etsək görərik ki, saxta, uydurma problemdir. Formal fəlsəfə ilə mübarizədə İslam dünyasında heç bir əsas irəli sürülmədən belə bir ziddiyyətin olduğu iddia edilmişdi. Yəni, vəhyin ağılla əksliyi həqiqi olmayıb illüziyadır. Çünki ağıl tərəzi rolunu oynayır, məlumatları müqayisə edir, aralarında balans yaradır. Tərəzinin gözləri dedikdə ağıl və vəhy başa düşülmür. Əksinə, bu gözlərin birində vəhy mətnləri (***nəql***), digərində isə fitrət və qanunauyğunluqlar (***sünən***) vardır. Ağılın vəzifəsi vəhy mətnlərinin fitrətə uyğunluğunu yoxlamaq, yazılı vəhyin görünəni – fitrət və qanunauyğunluqları ifadə etdiyini isbatlamaqdır. Yəni, fitrətin məqsədlərini vəhyin gerçəkləşdirdiyini, onu tənzimlədiyini göstərmək ağılın funksiyasına daxildir.

Buradan məlum olur ki, vəhylə (***nəqllə***) ağıl (tərəzi) arasında ziddiyyət mümkün deyildir. Mümkündür ki, ziddiyyət nəzəri cəhətdən vəhylə (***nəqllə***) fitrətin, qanunauyğunluqların (***sünən***) arasında görünsün. Bu vaxt ağılın vəzifəsi problemlə əlaqədar olaraq vəhylə fitrətin əlaqəsini təmin etməkdir.

Vəhy Allahdan gəlmişdir, fitrət və qanunauyğunluqlar isə Onun yaratdıqlarıdır. Odur ki vəhyin məzmunu, yolgöstərənliyi və təlimatları fitrətlə, qanunauyğunluqlarla, onlardakı məqsədlərlə əkslik təşkil edə bilməz. Vəhy fitrət və qanunauyğunluqların ifadəsidir, onları insanlığın özünütəsdiqi üçün tənzimləyir. O, Allahın yaratdığı şəkildə insan oğlunun tələbatları və məqsədlərinin həyata keçirilməsi üçün mövcuddur.

"(Ya rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi fitrətə tərəf tut. Allahın yaratdığını heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur..." (ər-Rum, 30).

Müsəlman təfəkkürünün qəsdən yaratmadığı "vəhyin ağılla ziddiyyəti" böhranı qədim yunan formal məntiqinin təsiri ilə meydana çıxmışdı. Bu, ümmətin dünyagörüşü və təfəkküründə, mədəni gedişində ciddi "əyilmə" idi. Bu problemin mahiyyəti və nə ilə nəticələndiyini dərk etməsək, ümmət öz dünyagörüşünü, elmi-mədəni abadlaşdırma gücünü geri qaytara bilməyəcəkdir.

Mifoloji-sofistik fəlsəfə və formal yunan məntiqi mahiyyət etibarı ilə "azad" ərköyün ağaların nəzəri-mifoloji metodu, zehni ərköyünlüyü idi. Bu fəlsəfə və məntiqin reallıqla, insan fitrəti və təbii qanunauyğunluqlarla heç bir əlaqəsi olmamışdır. Onlar ifrat subyektivizm olub, mif və əslində mövcud olmayan şeylər ətrafında əqli enerjini tükəndirən nəzəri "yuxular" idi. Nəticədə, subyektiv yanaşmalar haçalanır, dağınıq görüşlər meydana çıxır, fərqli mövqelər özünü göstərirdi. Bununla da, qeyri-zəruri fikir ayrılıqlarına, nəfsi istəyin doğurduğu subyektiv nöqteyi-nəzərlərə qapı açan fikri üslub (metod) formalaşmışdı. Biz bunun təsirini haqq və tövhid ümməti arasında da görürük: nəfsin tovlamaları və subyektiv baxışın meydana çıxardığı, saxta həqiqət və müqəddəslik donuna bürünmüş çoxlu qruplar islam tarixinin şahidi olduğu vəziyyətdir. Əgər bir-biri ilə mübahisə aparan bu tərəflər (qruplar) mübahisəli mövzuları səhih

dini mətnlər, insan fitrəti və təbii qanunauyğunluqlardan kəsb edilmiş biliklər əsasında nəzərdən keçirsəydilər, ixtilafların böyük əksəriyyəti həll olunardı.

Bəlanın ən böyüyü budur ki, ümmətin düşünmə üslubuna sirayət etmiş təhrif və anormallıq dini ixtilaflara da səbəb olmuşdu. Sofistik üslub, fəlsəfi “əsnəmə”, boşboğazlıq, şəxsi maraqlar, cahiliyyət dövrünün tör-töküntüsü ümmətin birliyini pozmuş, onu qruplara parçalamışdı.

Ağıl kompüteri xatırladır: ondan əldə olunan məlumatlar ona daxil edilən məlumatlardan asılıdır. Daxil edilənlər doğru məlumatlardırsa, əldə edilən məlumatlar da doğru olacaqdır. Əgər təsəvvür və iddia doğrudursa, iş də doğru olub reallığı, gerçəkliyi ifadə edəcəkdir. Yox, daxil edilənlər səhvdirsə, nəfsin istəyinə görədirsə, onda əldə edilən məlumat xurafat və cəfəngiyyat olacaqdır.

Nəzərə alsaq ki, ancaq Quran ritorikası insan fitrətinin, bioloji və təbii (fiziki) qanunauyğunluqların ifadəsidir, öyrənmiş olacağıq ki, vəhy insan fitrəti və qanunauyğunluqları heçə sayıb inkar etmək üçün mövcud deyildir; əksinə, ona görə mövcuddur ki, sağlam fitrəti və təbii qanunauyğunluqları insan oğlunun diqqətinə çatdırsın. Vəhy bunu ona görə edir ki, özünütəsdiqdə, fitrətdən irəli gələn tələbatları doğru şəkildə təmin etməkdə insan oğluna istiqamət versin. Bununla da, insan oğlunun fəaliyyəti məqsədyönlü olur və o, təbii qanunauyğunluqlardan düzgün istifadə edir, təbiəti yaradıcı və səmərəli şəkildə özünə ram edir, tələbat və ehtiyaclarını ifrata varmadan ödəyir, özünü təsdiqləyir, bu həyatda mənəvi-maddi xoşbəxtliyə nail olur, axirətdəki ali səadəti özünə məqsəd bilir. Bunun üçün islah etməli, bacarıqlı olmalı, yer üzünü abadlaşdırmalı, fədakarlıq göstərməlidir. Çünki insanın həqiqi dəyəri zəhmət çəkib məhsul ortaya qoyduqda özünü göstərir:

“Allahdan (Allahın əzabından) bacardığınız qədər qorxun. (Sizə verilə öyüd-nəsihətə) qulaq asın; (Allaha və Peyğəmbərinə) itaət edin və (mal-dövlətinizdən Allah yolunda) xərcləyin. Bu sizin özünüz üçün xeyirli olar. (Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə qovuşanlardır!” (ət-Təğabun, 16).

Beləliklə, mədəni islam dünyagörüşünü Quranda göstərildiyi və Peyğəmbərin dövründə gerşəkləşən formada təsəvvür edə bilsək, onu real həyatda tətbiq etmək mümkün olacaqdır. O da məlum olacaqdır ki, bu dünyagörüşü insan fitrəti və təbii qanunauyğunluqlarla ziddiyyət təşkil edə bilməz. Odur ki tədqiqatçılar vəhy və fitrət arasındakı obyektiv, rasional-elmi balansa əməl etməli, həqiqətə nail olmaq üçün fəhm və düşüncəni “saxta ziddiyyət”dən[1] təmizləməlidirlər.

## Səhabələrə və bədəvilərə görə islam dünyagörüşü

Bədəvi dünyagörüşü və bədəvi qəbilələrinin adət-ənənə və irqçi-qəbilə zehniyyətinin üstünlük qazanması, islamı qəbul etmiş xalqların dünyaya baxışının, keçmiş adət-ənənələrinin, avtoritar-despot mədəniyyətlərinin Müsəlman mədəniyyətində öz yerini alması, məkan və zaman amillərinin fövqündə dayanan Quran ritorikası ilə bütpərəst bədəvi ərəblərlə, mövcud vəziyyətləri ilə əlaqəli, əsas rüknlərə diqqət yetirən, camaat və cəmiyyət (namaz və zəkat) formalaşdırmağı məqsəd güdən, bununla da, onları (bədəviləri) ictimai-mədəni bədəvilikdən ümumdünya humanist Quran cəmiyyətinə inteqrasiya etdirmək istəyən Peyğəmbərin tətbiqi ritorikası arasında fərq qoymamaq – bütün bunlar səhabələrin sahib olduğu Quran dünyagörüşünün sonradan təhrif edilməsinə təsir göstərmişdir.

[1] Söhbət imanın ağıla, yaxud vəhyin insan fitrəti və təbii qanunauyğunluqlara zidd olduğunu iddia edən nöqteyi-nəzərlərdən gedir – ***tərcüməçinin qeydi.***

Bu üzdən səhabələrin sahib olduğu və yaşadıqları dövrü çiçəkləndirən Quran dünyagörüşünü bədəvi qəbilələrlə əlaqəli Peyğəmbər ritorikasını minimum şəkildə ifadə edən bədəvi dünyagörüşündən fərqləndirmək lazımdır.

Səhabələrin mədəni Quran dünyagörüşü ilə bədəvilərin ibtidai dünyagörüşü və onların əqli səviyyələrinə uyğun Peyğəmbər ritorikası arasında fərq vardır. Belə ki səhabələr Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* şagirdləri olub, ondan Quran-i-Kərimi və universal mədəni dünyagörüşünü öyrənmişdilər. Bu dünyagörüşündə varislik, yer üzünü abadlaşdırma, ali məqsədlər vardır.

Müsəlman alimlərinin həyatına nəzər salsaq, görəcəyik ki, Mədinə məktəbi varisləri məğlub olub, ümmətin əsas məsələlərini idarədən uzaqlaşdırılıb fərdi işlərlə məşğul olmağa məcbur etdirildikdən sonra qəbilə və xalqların siyasi hakimiyyət təcrübəsi ümmət ənənəsinə təsir göstərdi.

Bütün bunlar Quranla, mədəni dünyagörüşü ilə ideoloji əlaqənin zəifləməsində rol oynamış, bu dünyagörüşünün dəyişkən reallığa tətbiqinə təsir göstərmişdir.

Məlum çatışmazlıq islam dünyagörüşünü "bulandırmış", nəticədə ümmətin alimləri əsas diqqəti "zikr" mövzularına, fərdi hallar və ticarət məsələlərinə vermişlər. Elə isə islam dünyagörüşünün təhrifə uğramağı təəccüblü görünməməlidir. Beləliklə, müsəlman fərd həyatda "bələdçi"siz qalmışdır.

Ümmətin düşdüyü bu iyrənc vəziyyət və islam dünyagörüşünün təhrifə uğramağı nəticəsində fərd və ümmət olaraq özünütəsdiq, iş, islah və fədakarlıq əvəzinə, egosentrizmin (özmərkəzlilik) meydana çıxmağı təbii idi. Əslində bu, özünüləğv ritorikalarının doğurduğu əks-reaksiyadır. Təəccüb, qorxu, zəlillik, opportunizm, əxlaqi aşınma, dövlət qurumlarının iflası – bütün bunlar ümməti indiki vəziyyətə: itirilməyə, tənəzzülə, parçalanmaya, cəmiyyətin deqradasiyasına gətirib çıxarmışdır.

Qeyd edək ki, səhabələrinə müraciətdə Peyğəmbərin ritorikası alçaltma, qorxutma, zəlilləşdirmə deyil, sevgi, ehtiram ritorikası idi. Əslində bu, mədəni Quran dünyagörüşünün xüsusiyyətidir:

"...şərəf-şan da yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur..." (əl-Münafiqun, 8).

## Mədəni Quran dünyagörüşü nədir?

Deyə bilərik ki, islam dünyagörüşü tövhid əsaslı, məqsədyönlü, əxlaqa, abadlaşdırma və xeyir prinsiplərinə söykənən, insan fitrətini əks etdirən mədəni dünyagörüşüdür. Deməli, o, elm və qanunauyğunluqlar dünyagörüşü olub, insan fitrətini daima diqqətdə saxlamağı məqsəd güdür. Bu dünyagörüşü insan həyatını tənzimləyir ki, insan oğlu fərdi və ictimai müstəvidə özünü təsdiqləyə bilsin, tələbat və ehtiyaclarını düzgün şəkildə təmin etsin.

"Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Və ya gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik!)" (ən-Nəhl, 97).

Quran dünyagörüşü xeyrə, qanunauyğunluqlara, abadlaşdırma işinə əsaslandıqda insan fitrətini əks etdirib ona yol göstərir. Bu elə bir dünyagörüşüdür ki, insanı yaxşı həyat, mədəniyyət qurmaq, yer üzünü abadlaşdırmaq üçün lazım olan stimul və vicdani enerji ilə təmin edir. Çünki xəlifəlik (varislik) və mədənilik mahiyyət etibarı ilə müəyyən zaman və məkanda abadlaşdırma şüurunda olmaq və bunu həyata keçirməkdir. Mədəni Quran dünyagörüşünün məqsədi də budur. Deməli, mədəni Quran dünyagörüşü insanın yaxşı mənada özünü təsdiqləməsini təmin edən pozitiv və konstruktiv dünyagörüşü formasıdır.

Bu baxımdan mədəni Quran dünya görüşü bəzi saxta və təhrif olunmuş ritorikaların təsis etdiyi dünyagörüşü formasından fərqlənir. Həmin yanlış ritorikalara görə, Quran dünyagörüşü "özünüləğv" məqsədi daşıyır, insanı və həyatını qurban edən diktəedici fədakarlıq və vəzifələrə əsaslanır.

Quran dünyagörüşü Quranı öyrənib qəbul edənlər üçün fitrət, iman, tövhid, xeyir, müsbət abadlaşdırma, insanda özünütəsdiqi təmin edən dünyagörüşüdür. Bu dünyagörüşü sayəsində Allahın razılığı və sevgisini qazanırıq. Çünki islam dünyagörüşünə görə Allah sevgisi və ilahi razılıq Allahın istədiyi şəkildə özünü təsdiq etməkdir, mənəvi və maddi həyat yaşamaqdır. Axı islam dünyagörüşünə görə Allah yaradıcıdır, haqdır, xeyirdir, ədalətdir, sülhdür, kamillik və paklıqdır. Axı islam dünyagörüşünə görə şər və şeytan korrupsiyanı, zülmü, daşürəkliliyi, ədavət və təcavüzü təmsil edir. Deməli, dünyagörüşü doğru olarsa, müsəlman yaxşı insandır. Odur ki xeyri sevməli, şərə və şeytana nifrət etməlidir.

Uşaqlarımıza aşılamaq, vicdanlarına sirayət etmək istədiyimiz Quran dünyagörüşü sevgi, hörmət-izzət və sülh dünyagörüşüdür. Bu dünyagörüşü tövhid etiqadına, bilik və elmə, vicdan və əxlaqi paklığa söykənir. İnsan bu dünyagörüşündə Allahın sevgisini qazanır, öz iradəsi ilə Ona ibadət edir.

Bu baxımdan zikrin, namazın mənası aydın olur. Bu ibadət formaları Allahla əlaqəni ifadə edir.

"...Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək, şübhəsiz ki, daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir!" (əl-Ənkəbut, 45).

Müasir dünyada – maddi dəyərlərin üstünlük qazandığı bir dövrdə, mənfi ideoloji-mədəni təsirlərin artdığı bir vaxtda Allaha qarşı hisslər mərkəzçi rol oynayır. Elə psixoloji-sosial tədqiqatlar aparmaq lazımdır ki, Quran dünyagörüşünü və Allah

sevgisinin mərkəzçiliyini əsas götürsün. Bunun üçün ailə və məktəb tərbiyəsi kitabları yazılmalıdır. Uşaqlara aşılanmalıdır ki, Allah müsəlman insanı sevir. Böyüklərə gəlincə, onlara öyrədilməlidir ki, Allahın nemətləri, insan oğluna olan qayğısı haqqında düşünmək lazımdır.

Yeri gəlmişkən, qeyd edək ki, Allahı zikr və Onunla rabitə insanın özünü təsdiqlədiyi fitri və vicdani özüldür. Amma müsəlman bilməlidir ki, bu Allah sevgisi və Onunla rabitə varislik (xəlifəlik) və yer üzünün abadlaşdırma vəzifələri icra olunduğu təqdirdə həqiqi olur, məna kəsb edir. Sözügedən vəzifələri isə biliklə, yaxşı işlərlə, bacarıq və professionallıqla icra edilməlidir.

Təəssüf ki, Quran dünyagörüşü və ictimai tərəflərinə münasibətdə etinasızlığın baş alıb getməsi, onun mədəni sisteminin təsis edilməsinə diqqətin yetirilməməsi mədəni qəsbkarlığa zəmin hazırlamışdır. Müasir mədəniyyətin fiziki-maddi nailiyyətləri bu işdə böyük rol oynayır. Bir tərəfdən, qarşı tərəfin bütün vasitələrdən istifadə etməsi, digər tərəfdən isə müsəlmanların fikri-ideoloji, mənəvi-tərbiyəvi sahələrdə müqavimət və qorunma mexanizmindən məhrum olmaları mədəni qəsbkarlığın işini asanlaşdırmışdır.

Mədəni Quran dünyagörüşünün aktivliyi müəyyən şərtlər daxilində mümkündür. Buraya qənaətbəxşlik, iman, doğru və əxlaqi məqsəd daxildir. Aktiv icraçılıq düzgün düşünmə üsuluna, ciddi fəaliyyətə əsaslanır. Ciddi fəaliyyət isə insan fitrətinə uyğun olmalı, yaradıcılığa, professionalıq və hərtərəfli biliklərə söykənməlidir.

“De: “(Ey insanlar!) Çalışın (işləyin, fəaliyyət göstərin). Allah, Onun peyğəmbəri və möminlər əməllərinizi görəcəklər” (ət-Tövbə, 105).

Yuxarıdakı ayələr mədəni-abadlaşdırıcı Quran dünyagörüşünə görə insan oğlunun uğurlu fəaliyyətinin üç əsasını izah edir: a) iman gücü; b) əmək məhsuldarlığı; c) obyektiv-elmi əmək fəallığı.

Ümmət yaxud müsəlman fərd daxilindəki vicdani enerjini aşkara çıxarmaq istəyirsə, Quran dünyagörüşünü diqqətlə öyrənməli, əqidəsinə, vicdanına, həyat və özü ilə əlaqəli təsəvvürlərinə bu dünyagörüşünü, dəyər və anlayışlarını geri qaytarmalıdır. O, fəaliyyəti və düşüncəsində qanunauyğunluqları nəzərə alan elmi metodologiyaya əməl etməlidir ki, özünü təsdiqləsin, fitrətinə uysun, yer üzündə varislik edib xeyirxahlıq göstərsin, mədəni abadlaşdırma ilə məşğul olsun.

## Quran dünyagörüşündə “mən” və “özgə” anlayışları

Quran dünyagörüşünün qeyri-adi tərəflərindən biri də onun tövhid və inteqrasiyaya əsaslanmasıdır. Söhbət həmhüdud sahələrdə, tövhid və abadlaşdırma səciyyəli mədəni platformada fərdin başqaları ilə bütöv əlaqəsindən gedir. Bu platforma məqsədyönlülük və bütövləşmə (inteqrasiya) prinsiplərinə, qarşılıqlı abadlaşdırma fəaliyyətə əsaslanır. Məhz bunun sayəsində ədalət, tolerantlıq, qardaşlıq və sülh dəyərlərindən ibarət mədəni mühitdə fərd və kollektivin, insanlığın mənası təsdiqlənir.

İnsanın insana münasibətində cins, rəng, irq, dini mənsubiyyət, inanc fərqləri əsas götürülməməlidir. Hər kəs insandır və insan olmaq hamını birləşdirən ortaq dəyərdir. Onlar böyük insanlıq ailəsində bərabər fərdlər – qardaşlar olaraq xəlq edilmişlər:

“Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən rəbbinizdən qorxun!” (ən-Nisa, 1).

Fərdlərin bir-biri ilə əlaqəsi kollektiv əlaqədir. Bəşəriyyətin kökü birdir. Bu kökdən kişilər və qadınlar törəmişdir. Törəmişdir ki, cütlüklər, xalqlar və millətlər bir-birini tamamlasınlar, bir-birində bütövləşsinlər. Onları insanlıqda sevgi və rəhmət birləşdirir.

"Mən" və "özgə" müxtəliflik ifadə edən bəşəri kateqoriyalar olub, xalqları əmələ gətirir. Bu ona görədir ki, insanlar bir-biri ilə tanış olub bütövləşsinlər. Çünki bütövləşmə qarşılıqlı fəaliyyətin şərtidir. Bu səbəbdən insanlar bir bütöv olaraq müxtəlif xalqları, bacarıq və imkanları ifadə edirlər. Deməli, Quran dünyagörüşünə görə müxtəliflik irqçilik və ya üstünlük deyildir; əksinə, fərd və kollektivin mövcudluq şərti hesab edilən bütövlükdür.

"Mən" və "özgə" bir-birindən nə qədər fərqli olsalar da, insan olmaq baxımından eynidirlər: "Ərəb qeyri-ərəbdən, ağ da qaradan üstün deyildir. Üstünlük ancaq təqvaya görədir"[1]. Onların bacarıq və potensiallarının müxtəlif olmağı hökmranlıq və ya öyünmək üçün deyildir; əksinə, vahid bəşəri birlik daxilində əməkdaşlıq edib bütövləşmələri üçündür. Həmin bəşəri birlik təbiəti özünə ram edir, mədəniyyətlər qurur. Bu, hər bir insan üçün zərurət və nemətdir. Digər insanlar olmazsa, insan təkbaşına heç nə edə bilməz.

Deməli, "mən" və "özgə" birlik, aidlik və bəşəri qardaşlıq deməkdir. Məhz ədalət prinsipi hətta konflikt və çəkişmə vəziyyətində münasibətləri tənzimləyir. Ədalət olmazsa, bəşəri münasibətlərin, mənsubiyyətin, xəlifəlik məsuliyyətinin heç bir mənası qalmaz.

Əgər müsəlman fərd həyatda və münasibətlərdə ədalət və mötədilliyi əsas götürməzsə, müsəlman və mömin olduğunu iddia etməsi əsassızdır, imanı və müsəlmanlığına yenidən nəzər salmalıdır.

---

[1] Burada müəllif Peyğəmbərin hədisinə işarə etmişdir – ***tərcüməçinin qeydi.***

Əbu Zərr rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir: "Uca və Böyük Allah buyurur: "Ey bəndələrim! Mən zülmü özümə haram etmişəm. Sizə də bunu qadağan edirəm. Bir-birinizə zülm etməyin".

"Mən" və müsəlman "özgə" etiqad və dünyagörüşündə, kimlikdə qardaşdırlar. Qardaşlıq insan həyatının əsas cəhətini əmələ gətirir. Beləliklə, dürüst müsəlman "özgə"nin qardaşlığı ən əziz bəşəri yoldaşlıqdır. Çünki etiqad ən dərin mənəvi rabitəni ifadə edir. "Mən" və "özgə" Quran dünyagörüşünə görə müxtəliflikdə vəhdət, vəhdətdə müxtəliflikdir. Üstünlük ancaq yaxşı insan olaraq özünütəsdiqlə ölçülür. Yaxşı insan olmaq fitrətin əsasıdır, var olmağımızın məqsədidir, məsuliyyət və varisliyin şərtidir.

Abadlaşdırıcı islam dünyagörüşü irqçi-ədavətçi materialist dünyagörüşündən onunla fərqlənir ki, bəşəri fərqlilikləri birləşdirici, bütövləşdirici məzmunda başa düşür. Bu dünyagörüşündə müxtəlif varlıqlar qarşılıqlı pozitiv münasibətlər qurmaq üçün bir-biri ilə bütövləşir. Əslində bu insan fitrətinin əsasını, yer üzündə mövcudluğun zəminini təşkil edir. Burada nə ultra-fərdiyyətçiliyə, nə də ifrat kollektivçiliyə yer vardır. Bu dünyagörüşünün bütün elementlərinə tarazlıq və bütövləşmə, dinc münasibətlər xasdır.

## Quran dünyagörüşü ümumdünya sülhü deməkdir

İslam sonuncu yolgöstərən din olaraq, ədalət, qardaşlıq, şəfqət, sülh və abadlaşdırma dünyagörüşü əsasında universal və elmi bəşəri mədəniyyəti təsis etmək üçün göndərilmişdir. Bu səbəbdən Quran ritorikası ayrıca qəbiləyə, xalq və ya qrupa aid olmayıb, bütövlükdə insana, bütün bəşəriyyətə müraciət edən ritorikadır. Həmçinin Quran, bəşəriyyətin adladığı ilk mərhələlərdə insanlara çatdırılan vəhydə olduğu kimi, ancaq

möcüzə və xariqüladə hadisələrdən ibarət deyildir; o həm də yazma, öyrənmə, oxuma, düşünmə kitabıdır. İntellekt, arqument və qane etmə, hidayət, yolgöstərmə, qardaşlıq, ədalət, abadlaşdırma, sülh kitabı! Quran dünyagörüşü və vəhy universal elm əsrinin insanına xas dünyagörüşüdür. İnsan fitrətini, əbədi fiziki qanunauyğunluqları əks etdirən bu dünyagörüşü bəşəriyyətə yol göstərmək, abadlaşdırma vəzifəsini icra etmək, təhlükəsizlik və sülh sistemi qurmaq üçün mövcuddur. Quran tarixin ilk dövrlərinə aid materialist, irqçi və təcridedici dünyagörüşünün üstündən xətt çəkən universal dünyagörüşü forması təqdim edir.

İslam və ya Quranın sülh missiyası universal elm mədəniyyəti və bəşəriyyətin birliyini təsis etmək üçündür. Yəni, Quran missiyası puç inancları, tayfabaz və şovinist yanaşma tərzinin meydana gətirdiyi irqi təmayülləri rədd edir, əvəzində, bəşəriyyətin birliyi ideyasını irəli sürür. Bu baxımdan Qurani-Kərim əmin-amanlıq və sülhə zəmin hazırlayan dəyər və prinsiplər aşılamaqla bəşəriyyətə yol göstərmək imkanına sahibdir.

İrqçilik, tayfabazlıq və millətçilik mahiyyət etibarı ilə ayrı-seçkilik ifadə edir, özündən olmayanları qəbul etmir. Çünki irqçi-şovinist fəlsəfə fərqliliklərin qabardılmasına əsaslanır. Bununla da, müxtəliflik ayrı-seçkilik və hökmranlıq vasitəsinə çevrilir. Bu da öz növbəsində düşmənlik və zülmə təşviq edir. Beləliklə, neqativ müxtəliflik və ayrı-seçkiliyə söykənən bir dünyagörüşü forması konflikt və ədavət alovuna “yanacaq” olur, təbii müxtəlifliyi mübarizəyə çevirir. Millətlər, dövlətlər və etnik qruplar arasında bərabərsizlik, hegemonluq və ədavətə əsaslanan münasibətlər meydana çıxır. Məhz bu səbəbdən bəşəriyyət son əsrlərdə müstəmləkəçilik və dünya müharibələrinin şahidi olmuşdur. Bugün güc siyasəti, aldatmaq və kələk gəlmək yolu ilə təsir altına salmaq və nəzarətdə saxlamaq prinsipindən çıxış edən irqçi rejimlərin riskli silahlanma yarışı dünyanın təhlükəsizliyini təhdid edir.

Quran dünyagörüşü fərqliliklərə baxmayaraq, bəşəriyyətin bütünlüyünü təsdiqləyib qəbul edən yeganə dünyagörüşü formasıdır.

Quran dünyagörüşü bizimlə başqaları arasında mövcud olan müxtəlif münasibətlərə rəqabət zehniyyəti əsasında nəzər salmır; əksinə, bu münasibətləri bir bütün olaraq qəbul edir, ədalətə, şəfqətə, sevgiyə çağırır, zülm və düşmənliyi rədd edir.

Müsəlman ümməti və bəşəriyyət cəmiyyət qurarkən, xalqlar və millətlər arasında münasibətlər təsis edərkən Quran dünyagörüşünü əsas götürməlidir. Çünki məhz bu dünyagörüşünün sayəsində universal elmi mərhələyə start vermək, ədalət və sülh mədəniyyəti qurmaq mümkündür. Amma bu vaxt formal-nəzəri təqdimatla kifayətlənmək olmaz. Elm, tərbiyə, mənəviyyat, təşkilatlanma istiqamətlərində əməli addımlar atılmalıdır. Bəşəriyyətin birliyinə inanan sivil bəşəri sistem bu dünyagörüşünü əsas götürərsə, varislik vəzifəsi icra edilər, sülh və ədalət bərqərar olar.

Həqiqi islam mədəniyyəti bəşəriyyəti müasir materialist vəhşətdən xilas edib, ona düz yol göstərə bilər. Materialist yanaşma özü ilə konfliktlər, müharibələr gətirmişdir, silahlanma yarışına təşviq etməsi ilə bəşəriyyətin gələcəyini təhlükə altına salmışdır.

Universal mədəni Quran dünyagörüşünü ibtidai-irqçi elementlərdən, israiliyyat[1] cəfəngiyatından, mifoloji uydurmalardan təmizləmək lazımdır. Bunun üçün əvvəlcə Qurana qayıtmaq tələb olunur. Bununla yanaşı, Quran ritorikası və ondakı məqsədi düzgün başa düşmək olduqca zəruridir.

Əgər müsəlmanlar Quran dünyagörüşü və universal islam mədəniyyəti sistemini özlərinə zərurət bilsəydilər, islamın bəşəriyyətə təsiri ikiqat artıq olardı, bu din indiki sərhədlərindən

[1] Müsəlman dini-mədəni irsinə daxil olmuş yəhudi rəvayətlərindən söhbət gedir – ***tərcüməçinin qeydi.***

kənara yayılardı, müsəlman dünyagörüşü təhriflərə məruz qalmazdı və müsəlmanlar korrupsiyanın yayılmasına səbəb olmuş avtoritar qurumlardan yaxalarını qurtarardılar.

Bu yerdə, biz, bir tərəfdən, islamla müsəlman fərd, digər tərəfdən isə islamı çatdırma işi ilə (dəvət) dövlət arasındakı fərqi izah etməliyik. İslam sonuncu ilahi missiya olub, insana yol göstərir, onu mədəni dünyagörüşünün əsas prinsipləri ilə təmin edir. Bununla da, onun həyatına məna və məqsədyönlülük qazandırır.

Müraciət obyekti xəlifə (təmsilçi, varis) təyin edilən insandır. Hər insan islamdan, dəyərləri və təlimlərindən imkanı nəyə çatırsa, onu əxz edir. Müsəlmanlar islama iman gətirmiş insanlardır. Amma onlardan hər birinin öz əqli səviyyəsi, öz vicdanı, özünəməxsus davranışları var. Bütün insanlar kimi onlar da bir-birindən imanın dərəcəsinə, davranışlarına görə fərqlənirlər. Müsəlman fərdin səhvlərinin onun dini və ya əqidəsinin ayağına yazmaq səhv olardı. Davranış və danışıqda riayət etdiyi qaydalar, təbii ki, iman gətirdiyi dinin təsiri ilədir. Yol verilən səhvlər, dinin məqsəd və universal prinsiplərinə tərs düşən davranışlar isə müsəlman fərdin özünə aiddir.

Bununla yanaşı, dəvət və dövləti bir-biri ilə səhv salmaq olmaz. Dəvət hidayət, öyrətmə və tərbiyə məqsədilə könüllərə, vicdanlara müraciətdir. Dövlət isə insanların təsis etdikləri siyasi qurum olub, müxtəlif mütərəqqi formalara sahibdir. Dövlət bu və ya digər şəkildə insan qrupları ilə, siyasi-ictimai sistemləri ilə, yaşadıqları ərazi və maraqları ilə, daxili və xarici münasibətləri ilə əlaqəlidir. Daxili münasibətlər dedikdə bir cəmiyyətin fərdlərinin öz aralarındakı əlaqə, xarici münasibətlər dedikdə isə başqa dövlət və xalqlarla əlaqəsi nəzərdə tutulur.

Meydana çıxdıqları dövrdən bu günədək dövlətlər və siyasi sistemlərin bir-biri ilə münasibətlərinə ya sülh, ya sazişlər, ya da müharibə və konfliktlər hakim olmuşdur.

Mədəni islam dünyagörüşü bütün bu münasibətləri ədalət və sülh üzərində bina edir. Daxili sferada ədalət və həmrəylik özülü, məşvərət və məsləhətləşməni əmələ gətirir, qərarlar və islahatlar vasitəsi hesab olunur. Münasibətlər korlanıb zülm meydana çıxarsa, Şəriət və Qanun dövrəyə girir. Əks halda, dinc sivil vasitələr və vətəndaş itaətsizliyi səhvlərin təshih edilməsində sağlam vasitə rolunu oynayacaqdır. Digər siyasi tərəflə münasibətə gəlincə, bu, hüququ təsdiqləmək üçün səlahiyyət sahibi ilə danışıq aparmaqdır. Müharibə və silaha o halda əl atılır ki, hüququ başqa yolla hakim etmək mümkün olmur.

Təəssüf ki, Qərb Müsəlman dünyası ilə təmasa keçdikdən sonra təbii qanunauyğunluqlara əsaslanan elmi metodu birləşdirici Quran dünyagörüşünü qəbul etmədən mənimsəmişdir. Müsəlman dünyası ilə təmas Qərbin təbiət və sosial elmlərlə materialist prizmadan tanışlığının başlanğıcı olmuşdur. Nəticə etibarı ilə, irqçilik, zorakılıq və ictimai xəstəliklər vüsət kəsb etmişdi. Deməliyik ki, Qərbin islama düşmənliyi uzaq keçmişə gedib çıxır. Kilsənin islamla əlaqəli böhtan xarakterli iddiaları bu işdə az rol oynamamışdır.

Təəssüf ki, Raşidi xilafətinin ləğv edilməsi ilə islam tarixinin məcrası dəyişmişdir. Bununla da, həmin dövrün anlayış və dəyərlərini davam etdirmək imkanlarının üstündən xətt çəkilmişdir. Quran modelinə əsaslanan rəhbərlik nümunələrinin tükənməsi məlum dəyər və prinsipləri təmin edən qurumların tarix səhnəsindən silinməsi ilə nəticələnmişdi. Əslində, bu, tarixə və bəşər mədəniyyətinə istiqamət vermiş mədəni Quran dünyagörüşünün təhrifi demək idi.

Əgər Qərb və müasir bəşər mədəniyyəti elm və mədəniyyətin bayrağını islam mədəniyyətinin başlıca prinsiplərindən təhvil almışsa, onda ümmətin öz kökü üzərində intibaha ucalması, öz dünyagörüşünü tanıması çox mühümdür. Ümmət qurum anlayışına diqqət yetirməli, ədalət, azadlıq, qardaşlıq, şura və sülh kimi dəyərləri onun əsasında reallaşdırmalıdır. Qurumlar

olmazsa, eqoizm yenidən hakim olacaq, ümmət despotizm, korrupsiya, zorakılıq, acizlik, savadsızlıq, hakimiyyət və var-dövlət monopoliyasına sürüklənəcəkdir.

Quran dünyagörüşünün təqdim edilməsi, müxtəlif tərəflərinin öyrənilməsi, sosial qurumlarının yaradılması təkcə müsəlmanların deyil, həm də bəşəriyyətin salamatlığı üçün özül və yaxşılaşdırma prinsipi rolunu oynayacaqdır.

Quran dünyagörüşünün prinsiplərinin icmalını verməzdən əvvəl vəhyin, mənbələrinin: Quran və sünnənin öyrənilməsində zaman və məkan amillərinin nəzərə alınması məsələsinə toxunmağımız faydalı olacaqdır. Bu ona görədir ki, sabitlə dəyişkən səhv salınmasın.

## Sabit və dəyişkən: zaman və məkan

Vəhy dinin əsas mənbəyi olduğu üçün bu mənbə universal islam missiyasında hər şeydən əvvəl Qurani-Kərimlə – Allahın peyğəmbərinə nazil etdiyi sözlə təmsil olunur.

Sonuncu universal ilahi missiya olaraq Qurani-Kərim özünün sabitliyi ilə seçilir. Yəni, reallığın: zaman və məkanın dəyişilməsinə baxmayaraq, sabit qalan məqsədlər, dəyər və anlayışlar məcmusudur Quran! Bu məqsədlər, dəyər və anlayışlar “səvabit” (sabit qalan, dəyişməz) adlanır. Əgər insan həyatı, bilik və problemlər inkişaf edib dəyişilirsə, onda islamın dəyər və anlayışlarını zaman və məkana uyğun olaraq dəyişik üsullarla reallığa tətbiq etmək lazımdır. Bu yerdə, Sünnə nümunə və model təqdim etməkdə islam missiyasının ikinci mənbəyi kimi özünü göstərir. Sünnə isbatlayır ki, Quran ideallar və xəyallar, illüziyalar kitabı olmayıb, insana yol göstərən missiyadır.

Sünnənin mətnlərini öyrənərkən zaman və məkan amilləri nəzərə alınmalıdır. Sünnə Quranın dəyişməz dəyər və anlayışlarının, məqsədlərinin real həyata tətbiq edilməsində Peyğəm-

bərin müdrikliyini əks etdirir. Odur ki Quran dəyərləri və anlayışlarını reallığa tətbiq edərkən Peyğəmbərin təcrübəsini şüurlu şəkildə öyrənməliyik.

Bu, Quranın Allah tərəfindən nə səbəbə qorunduğunu, Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* nəyə görə öz göstərişləri və sözlərinin yazıya köçürülməsini istəmədiyini bizlərə izah edir. Peyğəmbər ehtiyatlanırdı ki, islam şəriətinin dəyişməz mənbəyini təmsil edən Quranla onun tətbiqi davranışları səhv salına bilər. Çünki Quranı tətbiqdə dəyişkən zaman və məkan amilləri nəzərə alınmalıdır.

Beləliklə, Qurani-Kərim və Pak Sünnənin mahiyyətini başa düşmək, insanı fitrəti və xarakterini, fiziki-təbii qanunauyğunluqları öyrənmək, zaman və məkan amillərini, real dəyişiklikləri və problemləri nəzərə almaq metodoloji məsələlərdir. Bu metodoloji məsələlər təlim-tərbiyə metodikasını yenidən təsis etmək, mədəni Quran dünyagörüşündən istifadə etmək, onun fikri və əqidə sistemini başa düşmək üçün çox zəruridir. Belə olduqda ümmət intibah mərhələsinə qədəm basacaq, ədalət, elm, universal və sülh mədəniyyəti qurulacaqdır.

## Real idealizm

Düzgün və birbaşa cavab tələb edən mühüm sualla qarşı-qarşıyayıq: Mədəni Quran dünyagörüşü, bəzi filosof və mütəfəkkirlərin iddia etdikləri kimi, real həyatdan uzaq idealist-xəyali, yoxsa bəşəriyyətin həyatında müsbət tərəfləri əks etdirən, ona yol göstərən həqiqi-real dünyagörüşüdür?

Müsəlman ümmətinin indiki dövrdə düçar olduğu parçalanmanın, zülmün, eqoizmin, yoxsulluğun, cəhalətin, korrupsiyanın, iflas etmiş sosial-siyasi sistem və qurumlarının fonunda bu suala cavab vermək ilk baxışdan çətindir. Çünki sadalanan bu hallar mədəni Quran dünyagörüşünə ziddir.

Bu suala cavab vermək üçün bir neçə aksioma müraciət etmək lazım gələcəkdir.

Birincisi budur ki, Quran dünyagörüşünün təqdim etdiyi şeylər arasında insan oğlunun istəyinə əks düşən heç nə yoxdur; bəşər tarixinin şahid olacağı ən qiymətli şey bu dünyagörüşünün yer üzündə tətbiq edilməsi olacaqdır.

İkincisi, Peyğəmbərin dövründə bu dünyagörüşü forması real və ideal formada tətbiq olunmuşdu. Deməli, Quran dünyagörüşü real həyata tətbiq edilməsi mümkün olmayan nəzəri, fəlsəfi və xəyali dünyagörüşü forması deyildir. Peyğəmbərin vəzifəsi bu dünyagörüşünə aid dəyər və anlayışları, prinsipləri real həyata, zaman və məkan amillərini nəzərə alaraq, müdrik şəkildə tətbiq etmək idi. Bəşəriyyət Peyğəmbər təcrübəsinin timsalında Quran dünyagörüşünün reallığının, tətbiq imkanlarının şahidi olmuşdu.

Üçüncüsü, xeyir, islah, mədəni quruculuq dəyərlərini real həyata və sosial sistemdə tətbiq etmək baxımından insanlar, cəmiyyətlər bir-birindən fərqlənirlər.

Odur ki xeyir və ədalətin zəif olduğu cəmiyyətlərdə özünüislah və mədəni cəmiyyət qurmaq məsələlərində ümidsizliyə düşmək lazım deyildir; bu cəmiyyətlər düşdükləri vəziyyəti meydana çıxaran səbəbləri aradan qaldırmalı, islam və islam dünyagörüşünün çağırışlarının idealizm olduğunu iddia edən nadan və qərəzli yanaşmalara qulaq verməməlidirlər. Çünki xəyali idealizmi real idealizmdən fərqləndirmək lazımdır. Onu da nəzərdən qaçırmaq olmaz ki, insana, insanın daxili təbii istək və meyllərinə doğru münasibət bəsləməyən idealizmin dəyəri yoxdur.

Real idealizm maddi və heyvani qaranlıqlarda nicat kəndiri rolunu oynayır.

Quran dünyagörüşünün idealist təbiəti haqqında olan suala verilən cavabın ikinci hissəsi aşağıdakı kimidir: Belə Quran idealizmini gerçəkləşdirmək üçün müsəlman fərd bütün bu dəyər və prinsipləri, anlayışları həyatının bütün sahələrində, davranışlarında əks etdirməlidirmi? Başqa ifadə ilə desək: bir insanın müsəlman olmağı üçün günah və səhvlərdən sıyrılaraq məsum olmağı lazımdırmı?

Qorxutma üslublu islam ritorikası bu təsəvvürü möhkəmləndirmişdir. Nəticədə bəşəri-mədəni reallıqda Quran dünyagörüşü qeyri-mümkün hala gəlmişdir.

Daxili dünyamızda xeyirlə şərin mübarizəsi getdiyindən büdrəmə və səhvetmə insan oğlunun təbiətində mövcuddur, odur ki məsumluq peyğəmbərlikləri ilə əlaqəli məsələlərdə ancaq peyğəmbərlərə xasdır. “Hər bir insan günahkardır, ən yaxşı günahkar isə davamlı şəkildə tövbə edəndir” hədisini xatırlayaq. Quran dünyagörüşü də insanın daxili dünyasında gedən xeyir-şər mübarizəsini təsdiqləyir və xeyrin qalib gəlməsi üçün yol göstərir.

Qeyd etdiyimiz kimi, insan nəfsində xeyir və şər qüvvələrin mübarizəsi bir həqiqətdir. Xeyrin qələbəsinə çalışmaq da, səhv etmək və büdrəmək imkanı da bir gerçəklikdir. Quran dünyagörüşü bunda bir ümidsizlik görmür. Çünki bu vəziyyəti düzəltmək üçün nəfsdəki yaxşı meyllərə dəstək vermək, dağıdıcı ünsürləri islah etmək işində ümidsizliyə düşməmək lazımdır. Allah nəfsə günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrətmişdir. O, mərhəmətli və rəhimlidir, tövbələri, günahdan uzaqlaşmağı qəbul edəndir. Quran dünyagörüşü xeyrə yol göstərir, kamilliyə çatmaq üçün insana güc verir.

Deyilənlərdən məlum olur ki, islamı, islam dünyagörüşünü bu dini və dünyagörüşünü təmsil edən müsəlman fərddən fərqləndirmək lazımdır. İslam dünyagörüşü hidayətdir, xeyrə

yolgöstərəndir, nəfsi tərbiyə edəndir; müsəlman fərd isə daxilində xeyirlə şərin mübarizəsi getdiyi üçün səhvə yol verə, ayağı büdrəyə bilər. Mübarizə vasitəsi olaraq, fərdləri, xalqları və mədəniyyətləri böhrana, toqquşmaya sürükləyən şərait və vəziyyəti öyrənmək, islah əməliyyatı ilə aradan qaldırmaq lazımdır.

Dəyişilmək, yaxşılaşmaq, səhvlərin nəticələrini aradan qaldırmaq üçün xalqlar mədəniyyətlərinə, adət-nənələrinə, tərbiyə və kadr yetişdirmə üsullarına tənqidi və sınayıcı nəzər salmalıdırlar. Dünyagörüşü düzələrsə, tərbiyə işi də yaxşılaşar, düşüncələr tutalı olar, vicdan ülviləşər. Bununla da, insan xeyir qüvvələrin qələbəsinə çalışacaq, ehtiyacların təmin edilməsində doğru yolu tapacaq, fərdi və kollektiv maraqlar qorunacaq, səhv və yanılmalar cəmiyyətin inkar etdiyi istisnaya çevriləcək, nəfs də onda israr göstərməyəcəkdir.

Bu gün ümmətin halının acınacaqlı olmağına baxmayaraq, alim və mütəfəkkirləri, başbilənləri vəziyyəti düzgün qiymətləndirməli, həll yollarını göstərməli, mədəni, düşüncə və tərbiyə üsullarında dəyişiklik etməli, kadr yetişdirmə, təhsil, qurumlar yaratma kimi sahələrdə islahatlar aparmalıdırlar. Əgər hər kəs ailədən məktəbədək bütün sahələrdə çatışmazlıqların səbəbini müəyyənləşdirib islah yolları təqdim etsə, ümmət özünə qayıda, mədəni rolunu bərpa edə bilər. Bununla da, mədəni Quran dünyagörüşü ümmətin dünyagörüşü və həyat tərzinə çevriləcəkdir.

Keçmişimiz və nailiyyətlərimiz göstərir ki, islam obyektiv bəşəri dünyagörüşüdür. O, xilas gəmisi, təhlükəsiz səyahət kompasıdır, fırtınalarda sahilə yol göstərən xəritədir.

İslamda irqçilik, despotizm, təcavüzkarlıq, təkəbbür yoxdur. İslam xəyali-mifoloji, alçaldıcı, kahinlik dini deyildir, materializmə, konflikt fəlsəfəsinə yox deyir. İslam real, həyati, mənəvi, balanslaşdırıcı və obyektiv dindir.

## Quran dünyagörüşünü prinsipləri

Quran dünyagörüşünün universalilərini, mədəni elementlərini düzgün dərk etsək, onun prinsip və anlayışlarına, dəyərlərinə obyektiv qiymət verəcəyik. Çünki bu dəyərlər, anlayış və prinsiplər Quran dünyagörüşünü real həyata tətbiq etmək üçün zəruri sayılan başlıca vasitələrdir. Bu dəyərlər, anlayış və prinsiplər müsəlman ümmətinin, ayrı-ayrı fərdlərin düşüncə üsulunu tənzimləyən, onu konkret reallığa çevirən, cəmiyyətdəki mədəni proseslərə istiqamətə göstərən, onu güc, enerji və iradə ilə təmin edən "avadanlıq" rolunu oynayır. Bu enerji, güc və iradə özü ilə birlikdə aktivlik, icra və inkişaf gətirəcək, qarşıya qoyulan məqsədlərin həyata keçirilməsini mümkün edəcək, vasitələri təkmilləşdirəcəkdir.

Bu prinsiplərə bir qədər ətraflı şəkildə toxunaq:

### 1. Tövhid

Tövhid islam dünyagörüşünün əsas prinsipidir, çünki insanın özünü dərk etməsində mühüm rol oynayır. Tövhid insan oğlunun həyatı, varlıq aləmini, axirəti qavrayıb dərk etməsində ali bəşəri məntiq funksiyasını icra edir.

"...Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı?! Ondan başqa heç bir tanrı yoxdur…" (Fatir, 3);

"(Ya rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" – deyə vəhy etməyək" (əl-Ənbiya, 25).

Həm Allahın təkliyi, qüdrəti, yeganəliyi və kamilliyi, həm də yaradılmadakı gözəllik məxluqatın növbənövlüyü və vəhdətini göstərir.

Əgər fitrət və kainat sisteminin bir-birini tamamlamağı Yaradıcının təkliyi və qüdrətini zəruri edirsə, onda kainatın sistemli və düzgün yaradılması bu yaradılmanın səbəbiyyət və inteqrasiya baxımından birliyini qaçılmaz edir.

**2. Xəlifəlik (varislik)**

"(Ya rəsulum!) Sənin rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə..." (əl-Bəqərə, 30).

Xəlifəlik prinsipi insan fitrətində öz əksini tapmayan Quran tapşırığı deyildir; əksinə, bu prinsip insanın fərd və kollektiv olaraq gücünü göstərir. Yaşamaq, fəaliyyət göstərmək, tələbatları ödəmək məqsədilə təbiəti nəzarət altına almaq, düşüncəni, seçimləri, prinsipləri, dəyər və anlayışları ifadə etmək üçün insan oğluna Allah tərəfindən digər canlılarda olmayan səciyyəvi xüsusiyyətlər verilmişdir. Çünki materiya doğru dəyər və anlayışları əks etdirməzsə, dəyəri yoxdur. Həmçinin materiyada öz əksini tapmayan prinsip, dəyər və anlayışlar heç bir dəyərə sahib deyildir.

Beləliklə, davranış və seçim məsuliyyəti ilə müşayiət olunan varislik insan həyatının mənası olub, müsbət fəaliyyət və yaradıcılıqda, abadlaşdırmada onun məqsədini ifadə edir.

**3. Ədalət və mötədillik**

Ədalət hər növ zülm və insafsızlığın əksidir. Bəşəriyyətin qarşılıqlı fəaliyyətində, mənəvi, maddi, sosial-siyasi və iqtisadi sferalarda ədalət əsasdır.

Ədalət və mötədillik olmazsa, insanın mövcudluğu və varislik vəzifəsi öz mənasını itirəcəkdir. Ədalət davranışlara obyektiv məzmun kəsb etdirir, onda əxlaq və məqsədyönlülüyü təmin edir, fitrətdən xəbər verir. Bu səbəbdən insana əmr edilən ilk şey ədalətli olmaqdır. Çünki o, həyatın mənası, fitrətin ni-

zamlayıcısıdır. Ədalət ilə Allah özünü zülmdən uzaq tutur. Amma insan yoldan uzaqlaşıb, Allahdan qeyrisinin iradəsinə tabe olduğu üçün özünə zülm edir.

“Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!” (ən-Nəhl, 90);

“...Allah onlara zülm edən deyildi, lakin onlar özlərinə zülm etdilər” (ət-Tövbə, 70);

“...Allah aləmlərə (bəşər əhlinə) zülm etmək istəməz” (Ali-İmran, 108).

Həyatın mənası ədalətlə şərtləşdiyindən Allah Təala insana hər bir şeydə ədalət və mötədilliyi gözləyib özünü təsdiqləsin deyə yol göstərir. İnsan öz ilə də ədalətli olmalıdır. Hətta düşmənə münasibətdə ədalətdən uzaqlaşmaq olmaz.

Əgər ədalət mahiyyət və məzmundursa, onda mötədillik bələdçidir. Çünki mötədilliyin yoxluğu könüllərdə fəsada səbəb olur. Bu isə ədalətli olmağa əngəl törədir. Elə isə mötədillik yoxdursa, ədalət də yoxdur. Ədalət hökm sürərsə, mötədillik də hökm sürər. Mötədillik yayılarsa, onunla birlikdə ədalət də, mərhəmət də, həmrəylik də mövcud olar.

Cabir ibn Abdullah rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* demişdir:

“Zülmdən çəkinin! Heç şübhəsiz, zülm Qiyamət zülmətidir. Tamahkarlıqdan çəkinin, heç şübhəsiz, tamahkarlıq sizdən əvvəlkiləri cəhənnəmlik etmişdir. Onlar tamahkarlıq üzündən bir-birinin qanını axıtmış, haramlarını halal etmişlər”.

Abdullah ibn Ömər rəvayət edir ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurmuşdur:

"Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməməlidir".

**4. Azadlıq**

Allah hörmətli-izzətli etməklə, xəlifəlik məsuliyyəti yükləməklə insan oğlunu digər canlılardan fərqləndirmişdir. İnsan davranış və seçimlərində azaddır. Sərbəst icraçılıq fərdin öz bacarıq və imkanları daxilində iradəsi və razılığını ifadə etmə hüququnu əmələ gətirir.

"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər..." (əl-Bəqərə, 286);

"...Allah heç kəsi Özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz..." (ət-Talaq, 7).

İki növ azadlıq vardır:

Birinci növ azadlıq fərdin etiqad və dünyagörüşündəki qənaətbəxşliyi ilə əlaqəli vicdani və şəxsi azadlığıdır. Heç kəsin öz dünyagörüşü və qane olduğu fikirləri başqasına diktə etmək və ya bu məsələyə tövsiyə və dəvət yolundan başqa üsullarla müdaxilə etmək hüququ yoxdur.

İkincisi sosial sahədə və qarşılıqlı maraqlarda davranış azadlığıdır. Bu azadlıqla əlaqədar olaraq cəmiyyətin üzvləri arasında razılaşdırılmış sərhədlər olmalıdır. Və ya bu azadlığın sərhədlərini cəmiyyət şurası cızmalıdır. Belə ki cəmiyyətin istənilən üzvünün öz doğru məqsədinə çatmaq hüququ vardır. Təbii ki, bu vaxt azadlıq özbaşınalığa çevrilməməli, başqalarının maraqlarına zərər verməməlidir. Bu vaxt elə etmək lazımdır ki, şəxsi istək və maraqlar diktəedici məzmun kəsb etməsin, cəmiyyətin ümumi rəyinə əks düşməsin. Əks halda, cəmiyyətdə despotizm və fəsad meydana çıxacaqdır.

Ümməti yenidən qurub, bəşər mədəniyyətinə istiqamət verdiyimiz vaxt dərk etməliyik ki, insan ancaq fərd kimi mövcud ola bilməz. Çünki insan mahiyyət etibarı ilə sosial varlıqdır. O, ancaq kollektivdə mövcud olub özünü təsdiqləyə bilər. Bunun üçün mövcudluq və fitrətə uyğun olaraq, kollektiv fərdin varolma sahəsi, fəaliyyət və azadlığının çərçivəsidir. Nəticə etibarı ilə məhz kollektiv fərdin başqaları ilə münasibətlərində sağlam zəruri qaydalar və sərhədlər qoyur. Amma bu vaxt fərdin və kollektivin (cəmiyyətin) hüquqları arasında balansı qorumaq lazımdır. Maraqları təmin edən, zərəri uzaqlaşdıran, despotizmə imkan verməyən razılaşma və məsləhətləşmə bu məsələdə əsas üsullar hesab olunur.

### 5. Məsuliyyət

İnsan oğlu fitrəti, elmi-mədəni varislik bacarığı, kainatdakı məqsədyönlülüyü dərk etməsi baxımından yaxşı başa düşür ki, imkanları və seçimləri çərçivəsində qərar vermək azadlığına sahibdir. Deməli, bu qərar və seçimlərin məsuliyyətini özü daşıyır. Xeyir xeyri, şər də şəri gətirir.

"Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!" (Yasin, 54).

### 6. Məqsədyönlülük

İnsan oğlu tövhidə əsaslanan fitrəti ilə, varislik ifadə edən məqamı ilə, Allahın bəxş etdiyi qavrama və bilmə bacarığı ilə, kainatdakı sistemliliyi müşahidə etməsi ilə bu nəticəyə gəlir ki, kainat və insan boşu-boşuna mövcud deyildir.

"Biz göyü, yeri və onlar arasında olanları oyun-oyuncaq yaratmadıq" (əl-Ənbiya, 16).

Beləliklə, insan fitrətən dərk edir ki, mövcudluq məqsədyönlülük kəsb edir.

Quran dünyagörüşünə görə, insan ciddi, xeyirli və məzmunlu həyat sürməlidir. Həyatda reallaşdırdığı hər şeyin həqiqi

səmərəsi olacaqdır. Bu səmərə hətta əbədi axirət həyatını əhatə edəcəkdir. İslam öyrədir ki, həyat bədənin çürüməsi ilə başa çatmır, dünyada etdiklərinin səmərəsini insan oğlunun gördüyü axirəti də özündə birləşdirir. Elə isə insan oğlu digər canlılarla eyni ola bilməz. Onun mənəvi dünyası, ağılı, vicdanı, islah və abadlaşdırma, yaxşılıq etmə və yaradıcılıq kimi vəzifələri vardır.

**7. Əxlaq**

İnsan fitrətən dərk edir ki, kainatın bir yaradıcısı, yaradılmışların da vəzifəsi olmalıdır. Deməli, insan oğlu ali və əxlaqi məqsədlər üçün yaradılmışdır. Bu məqsədlər haqqında Quran dünyagörüşündə məlumat verilir. Quran bu məqsədləri həyatı boyu insan oğlunun diqqətinə çatdırır ki, şüurlu şəkildə və məsuliyyət hiss edərək düşünməsi, qərar verməsi üçün ona yol göstərsin. Yəni, insan oğlu hansı yolu tutub getməlidir, ikisindən hansını seçməlidir: islah və abadlaşdırmamı, yoxsa azğınlıq və fəsadmı?

Bu mənəvi və fitri hiss insanda doğuluşdan mövcuddur. Buna görə də onun davranışlarına ruhun işığı, vicdanın gücü istiqamət verir. Bu isə ehtiyacları təmin etmədə zülm, təcavüz və əzib keçmə məntiqindən çıxış edən, bədənin bioloji-fiziki tərəfini əsas götürən nöqteyi-nəzərə ziddir.

**8. Şura (məsləhətləşmə)**

Mədəni Quran dünyagörüşünə əsasən öyrəndik ki, insan oğlu abadlaşdırma vəzifəsini icra etmək üçün xəlifə olaraq yaradılmışdır. Bunun üçün ona abadlaşdırma və təbiəti ram etmə bacarığı, azadlıq, seçmə qabiliyyəti, məqsədyönlü həyat fəlsəfəsini dərk edən vicdan və fitrət verilmişdir.

Sual yaranır: Nə üçün varislik fərdi vəzifə olmaqdan əvvəl kollektiv və ya nəsillərin görəcəyi vəzifədir?

Çünki varislik hər bir fərdin məsuliyyəti olmaqla yanaşı, eyni vaxtda insan növü və cəmiyyətlə əlaqəli kollektiv-sosial vəzifədir. Bu vəzifə fərdlər vasitəsilə cəmiyyətədək uzanır, nəsilləri əhatə edir. Bu da öz növbəsində azadlıq və məsuliyyət anlayışlarına mühüm cəhətlər kəsb etdirir. Məsuliyyət fəsad və dağıdıcılığı deyil, islah və quruculuğu (abadlaşdırmanı) hədəf götürmüş məqsəd deməkdir.

Azad olmaq fərdi hüquqdur. Amma bu hüquq cəmiyyətdə özbaşınalığa bəraət qazandıra bilməz. Bu vaxt gələcək nəsillərin də hüquqları, maraqları, abadlaşdırma vəzifəsi nəzərə alınmalıdır.

Bu yerdə, nəfsi istəklərə tabe olmayan, müxtəlif nüfuz və hakimiyyət sahiblərinin şəxsi maraqlarına xidmət etməyən şura prinsipinin rolu qabarıq görünür. Şura fərdlər və kollektivin qanuni hüquqlarını qorumaq məqsədilə kollektivin məsləhətləşməsidir. Bu məsləhətləşmə insan oğlunun yer üzündəki vəzifəsinin reallaşması, quruculuq, islah və əmin-amanlıq məsələlərində ümumun maraqlarının qorunması üçündür.

Şura fərdi və kollektiv həyatın ayrılmaz hissəsi olub, varislik vəzifəsinə fərdlər və kollektivin ehtiramla yanaşmasını ifadə edir.

Şura bəşəri icraçılığı tənzimləmə, sağlam fikirlər emal etmə vasitəsidir.

Şura aktiv və müsbət icra, səmərəli kollektiv təkliflər deməkdir.

Şura dialoq, ünsiyyət, tolerantlıq, razılaşma, mötədillikdə sosial kollektiv vasitədir.

Şura ümmətlə qorunmadır, həm də ümmətin qorunmasıdır. Şura despotizmə, azğınlığa, korrupsiyaya qalxandır.

Ümmət abadlaşdırıcı mədəni dünyagörüşünə sahib olub, maraqlarını və seçmək hüququnu dərk edərsə, hakimiyyətə qəyyumluq edəcəkdir. Amma yuxarıda sadalananlar olmazsa, hakim fərd ümmətə ağalıq edəcək, onun şəxsi maraqlarına tabe tərəfə çevirəcək, hakimiyyət və təbii resursları monopoliyası altına salacaqdır. Belə dövlət və cəmiyyətlərdə avtoritar rejim bütün yaradıcılıq və inkişaf imkanlarının qarşısını kəsir. Bu üzdən mədəniyyətlərin qurulması və yıxılmasında azadlıq və şuranın xüsusi əhəmiyyəti vardır.

### 9. Azadlıq və şura – mədəniyyətlərin davamlılığının zəruri şərti kimi

Təbii məsələdir ki, despotizm, zülm və korrupsiya azadlıq və şura ilə birlikdə addımlaya bilməz. Çünki zülm və korrupsiya qaranlıq, cəhalət, saxtakarlıq, aldatma olan yerdə inkişaf edir. Bir-biri ilə əlaqədə olan, məsləhətləşən azad insanları hər zaman hamılıqda aldatmaq və yoldan çıxarmaq mümkün deyildir.

Ədalət azadlıq və şuranı təmin edir. Ədalət yoxdursa, azadlıq və şura da yoxdur.

Oyanma və yenidən özünüdərk mərhələsində olan müsəlman ümmətinin bilməsi mühümdür ki, şura və azadlıq anlayışları ilə mədəniyyətlərin qurulub dağılması arasında birbaşa əlaqə vardır. Bu anlayışlar xalqların inkişafı və tənəzzülünə təsir göstərir. Mütəfəkkirlərin, rəhbər və islahatçıların real şəraitə necə münasibət bəsləməyi öyrənmələri lazımdır. Əvvəlki mədəni mövqeyin geri qaytarılması üçün ümmətin yenidən hazırlanması işində şura və azadlıq prinsiplərinə riayət olunması faktının rolu böyükdür.

Bu gün irqçilik və materializmdən, saxta demokratiya iddialarından, dağıdıcı və özbaşına azadlıqlardan, hakimiyyət və iri kapital sahiblərinin nəzarət etdiyi araşdırma və informasiya

mərkəzlərinin manipulyasiyalarından, aclıq və savadsızlıqdan əziyyət çəkən bəşəriyyət uçuruma doğru gedir. Odur ki mənəvi islam mədəniyyətinin yenidən doğmasına ehtiyac vardır.

Müasir materialist mədəniyyətin təhrif və saxtakarlıqları, subyektiv sosial-mədəni və fikri qəlibləmə, hakimiyyət, kapital və texnologiya monopoliyası – bütün bunlar göstərir ki, bu mədəniyyət anormallıq, despotizm, zülm və korrupsiya mərhələsinə qədəm basmışdır. Bu vəziyyət onun sosial-mədəni strukturu və beynəlxalq sisteminin tənəzzül edəcəyindən xəbər verir.

Bu mərhələdə sosial sistemdə qurumların oynadığı əhəmiyyətə işarə etməmək mümkün deyildir. Çünki sağlam əsaslar üzərinə qaldırılmış sistemlər avtoritar təhriflərin qarşısını alır. Bu həm də ona görədir ki, təşkilati üslub nəticəsində məsləhətləşmə sistemi qoruyan metoda çevrilir, özbaşınalıq və sapqınlıq "toxum"larını qurudur, korrupsiya və saxtakarlığı üzə çıxaran, təşəbbüs və yaradıcılıq üçün imkanlar açan azadlıqları mühafizə edir.

İndiyə qədər deyilənlərdən belə bir sual meydana çıxır: Məccani sərvətlər, müavinət və kreditləri xatırladan gəlirlər daha çox despotizm və korrupsiya mənbəyinə çevrilib, mövcud hakimiyyət və sərvət monopoliyasının davamlılığına səbəb olmuş ətalət və tənəzzülü artırıbmı?

Əgər mütəfəkkirlər, islahatçı və pedaqoqlar bu problemə diqqət ayırmasalar, ümmətin oyanış "tumurcuq"ları çiçək açıb meyvə vermədən quruyacaqdır.

Mütəfəkkirlər, islahatçılar, pedaqoq və ziyalılar ümməti "abort" təhlükəsi və yanlış istiqamətlərdən xilas etmək üçün nə vaxt qollarını çırmalayacaqlar, ona verilmiş mədəni irs fürsətini əldə etməsi üçün onu nə vaxt hazır vəziyyətə gətirəcəklər?

Abadlaşdırıcı mədəni dünyagörüşümüzü nə vaxt geri qaytaracağıq? Düşüncə və ritorikamızdakı təhrifləri, səhv tərbiyə üsullarımızı düzəldə biləcəyikmi? Dəyərlərimizi, anlayış və prinsiplərimizi qoruyacaq qurumlar yarada biləcəyikmi?

Əngəl və çətinliklərə baxmayaraq, bütün bunlar mümkündür. Çünki ümmətin mütəfəkkir, islahatçı və tərbiyəçilərin zəhməti, ana və ataların fədakarlığı ilə aktivləşməsi mümkün potensiyalı vardır. Çünki ana və atalar tərbiyə işini düzgün qura bilsələr, sahib olduqları əzmkarlıq və fədakarlıq sayəsində sağlam nəsillər yetişdirə biləcəklər.

İnsanımıza, özümüzə hörmət edib, azadlıqlarımızı qoruyacağıqmı, elm, bilik, ədalət, şura, həmrəylik, əmin-amanlıq, sülh qurumlarımızı formalaşdıracağıqmı?

Allahın yer üzündəki xəlifəsi olaraq vəzifəmizi tam şəkildə icra etmək üçün kainatı, kainat qanunlarını kompleks şəkildə öyrənməliyik. Belə olarsa, bəşəri və maddi resurslardan məsuliyyətlə istifadə etməklə insanların qanuni istək və tələbatları təmin olunacaq, yaradıcı imkanları artırılacaq, varislik vəzifəsinin səmərəsi özünü göstərəcəkdir.

### 10. Qanunauyğunluqlara əsaslanan elmi universallıq

Şüur, düşünmək, fitri hərəkət etmək ancaq insan oğluna xasdır. Bu da zəruri edir ki, insan oğlu Yaradıcının təkliyini, həyatdakı məqsədyönlülüyü ağlı ilə dərk etsin, fitrət və vicdanın səsinə hay versin.

Ağıl, fitrət, həyat reallığı və fiziki qanunauyğunluqlar həyatı və varlıq aləmini dərk etmək üçün rasional-fitri vasitələr rolunu oynayır. Hərtərəfli, elmi, intellektual obyektiv münasibət olmazsa, ağıl və fitrətin "yox" dediyi özbaşınalıq, xaos və anormallıq meydana çıxacaqdır.

Formal-mifoloji yunan irsinin təsiri ilə müsəlman düşüncəsində metodoloji təhriflər meydana çıxmasaydı, müsəlmanlar qurucu pionerlər olacaqdılar. Çünki onlar mədəni Quran dünyagörüşünün yolgöstərənliyi ilə müxtəlif elmlərin açarlarına sahib olmağa qadirdirlər.

Xurafat və formallıqdan uzaq qalmaq şərti ilə ümmətdaxili elmi, islahatçı və mədəni proseslərə düzgün istiqamət vermək üçün müsəlman ziyalılar, tədqiqatçılar, mütəfəkkirlər, islahatçılar hərtərəfli elmi-metodoloji yanaşma tərzini mədəni Quran dünyagörüşü ilə əlahiddə götürməlidirlər. Bunun üçün tərbiyə, təhsil və mədəniyyət sahələrində islahat aparmaq lazımdır. Çünki bu sahələr düşüncə və elmi qurumların formalaşmasında, elmi və lider kadrların hazırlanmasında mühüm rol oynayır. İslam bütün sahələrdə elm və bilik zehniyyətini təsis edən koqnitiv inteqrasiyaya böyük əhəmiyyət verir.

Müsəlman cəmiyyətində islahatlar aparmaq istəyən mütəfəkkir, tərbiyəçi və islahatçılar başa düşməlidirlər ki, insanı aktivləşdirmək, ona məqsədyönlülük aşılamaq üçün təkcə bilik kifayət etmir. Bunun üçün psixoloji, mənəvi və emosional amilləri də nəzərə almaq lazımdır. Aktivlik təkcə bilikdən asılı deyil. Aktivlik insanın sahib olduğu biliklərə iradəsi və emosiyaları ilə necə münasibət bəsləməsindən asılıdır.

Deməli, islahat üçün ancaq təhsil və məktəbin qayğısına qalmaq bəs etmir. Həmçinin insanın fiziki və psixoloji cəhətdən formalaşmasında əsas rol oynayan uşaqlıq dövrü tərbiyəsi vicdanın möhkəmlənməsində ciddi amil hesab olunur. Bunun vicdana və qəlbə, insanın seçimlərinə istiqamət verən psixoloji xüsusiyyətlərə silinməz təsiri vardır.

Bu baxımdan müsəlman fərd və cəmiyyət ümmətin düşünmə üslubundakı təhrifləri düzəltməlidir. Həmçinin gənclərin tərbiyəsi metodikasında redaktə işi aparılmalıdır. Bu ona görədir ki, gələcək nəsillərin özülü düzgün atılsın, hər şeydən əv-

vəl isə ümmətin mədəni dünyagörüşü yenidən təsis edilsin. Dünyagörüşü isə koqnitiv-mənəvi strukturda əsasdır. Beləliklə, müsəlmanlar gələcək nəsillərin tövhidə, əxlaqa, abadlaşdırma işinə əsaslanan etiqadının formalaşmasını təmin edəcəklər.

### 11. Ümumbəşərilik

Ümumbəşərilik insanın bütün formalaşma mərhələlərini özündə birləşdirən anlayışdır. Ümumbəşərilik fərddən ailəyə, qəbiləyə, xalqa, dil və rəngə, cinsə qədər bütün həmhüdud dairələrin daxil olduğu ən böyük əsil-kök dairəsi insan və insanlıq deməkdir.

Ümumbəşərilik insan oğlunun mədəniliyi və indiyədək bir çox zaman və məkan əngəllərini yıxmış elmi bacarıqlarının səmərəsidir. Ümumbəşərilikdə insana insan olaraq müraciət olunur. Çünki ümumbəşərilikdə irqçiliyə yer yoxdur. Həmçinin ümumbəşəriliyin meydana çıxardığı, fiziki-bioloji, sosial qanunauyğunluqlara əsaslanan elmi təfəkkür xurafata, sehrə, cəfəngiyata yox deyir.

İslamdan əvvəlki dinlər ayrı-ayrı xalqlara göndərilmiş ilahi mesajlar idi. İslam isə bütün bəşəriyyətə göndərilmişdi, ümumbəşəri ritorikaya sahib idi. İslamda vasitə bilik və qanunauyğunluqlar, arqument “kitab” və “oxu”, məqsəd isə ədalət və sülh idi. Çünki ədalət olmazsa, nə ümumbəşərilik qalar, nə də sülh!

Çoxları elə güman edir ki, qloballaşma yeni təzahürdür. Amma bu doğru deyildir. Qloballaşma dövrün imkanları ilə silahlanmış siyasi və iqtisadi güclərin müstəmləkə və istismarçı siyasətinin indiki dövrdəki adıdır. Məqsəd daha çox zülm etmək, daha çox qazanmaq, daha çox əsarət altına almaqdır.

Ümumbəşərilik qloballaşma deyildir: onlar bir-birinə zidd anlayışlardır. Ümumbəşərilik qardaşlıqdır, qarşılıqlı şəfqətdir, maraqların ədalətlə bölüşdürülməsidir, insanlar arasında sülh-

dür. Qloballaşma isə öyünmədir, hegemonluqdur, nəzarətdir, istismardır, dünya müharibələri və tamahkarlıqdır, ədalətsiz inhisarçı, müstəmləkəçi sistemdir.

İslamın bəşəriyyətə göndərilməsindən sonra dünyanın keçirdiyi bilik və ümumbəşərilik mərhələsi, xalqların ünsiyyətində bütün əngəlləri ləğv edən kommunikasiya prosesinin inkişafı – bütün bunlar insanları, xalqları vahid ümumbəşəri cəmiyyətdə birləşməyə təşviq edir.

Vahid dünya cəmiyyəti və dövləti xülyaya oxşasa da, bəşəriyyətin bugünkü vəziyyəti onu bir zərurətə çevirmişdir.

Mütəfəkkir və islahatçılar bəşəriyyətin bu arzusunu həyata keçirmək üçün böyük fürsət qarşısındadırlar. Bu arzunun həyata keçirilməsi, əslində insanın yer üzündəki xəlifəlik missiyasının icra edilməsi, qardaşlığın, ədalətin, abadlaşdırma və sülhün təmin edilməsi deməkdir. Bunun üçün xalqlararası əlaqələrdən və ümumbəşəri proseslərdən istifadə etmək lazımdır. Bu fürsətin əldən qaçırılması ağrılı və faciəli olacaqdır.

Ciddi sual yaranır: Belə cəmiyyət və sistemin konturlarını qlobal güclər cızacaq, yoxsa mütəfəkkir və alimlər Quran-islam mədəniyyətinin yaradılması üçün fürsəti qənimət bilib uğur qazanacaqlar?

### 12. Sülh

Mədəni Quran dünyagörüşünə görə, sülh ədalətin və bəşəri vəhdətin danılmaz şərti və prinsipidir. Madam ki islam dünyagörüşündə bəşəriyyət vəhdətdə növbənövlüyü, növbənövlükdə isə vəhdəti ifadə edir, bəşəri struktur (fərdlər, nəsillər...) həmhüdud dairələrdən ibarətdir, elə isə bu iç-içə münasibətlərin tənzimlənməsi üçün sülh bir zərurətdir.

Uca Allah buyurur:

“Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin!..” (əl-Bəqərə, 208).

Qeyd edək ki, yuxarıda göstərdiyimiz prinsiplər islam fikrinin ən mühüm prinsipləridir, onları əlavə təfsilat və təsnifata təhkim etmək mümkündür. Əlavə təfsilat və təsnifat isə elmi-metodoloji tədqiqatlarda səmərəli olacaqdır.

### 13. İslahatçılıq və abadlaşdırma

Yaşamaq üçün səy göstərib zəhmət çəkmək insan oğlunun fitrətində mövcuddur. Bu, yer üzündə xəlifə olmağın səmərəsi kimi özünü göstərir. Amma insanın yaşamaq üçün çəkdiyi zəhmətdə iki qüvvə bir-biri ilə mübarizə aparır: birincisi parçalamağa, öz tələbatlarını zorakılıqla, güclə, zülmlə, təcavüzlə əldə etməyə meyl göstərən heyvani-bioloji instinktlərdir; ikincisi isə insanı haqq, ədalət, rəhmət dəyərlərinə əməl etməyə, zülm və təcavüzdən uzaq qalmağa təşviq edən mənəvi, hissi, vicdani və fitri instinktlərdir.

Fərqində olmalıyıq ki, abadlaşdırma və islah məqsədi yer üzündə insanın mövcudluğuna dair Quran dünyagörüşündən ayrı olmayan sağlam, fitri prinsipdir. İnsan oğlu təbii ehtiyaclarını ödəmək üçün işləməyi, zəhmət çəkməyi, səy göstərməyi özünə məqsəd bilməzsə, nə yer üzündə dəyəri qalar, nə də özünü təsdiqləyə bilər.

Amma insan oğlu yaşamaq üçün zəhmət çəkib səy göstərərkən insan olduğunu təsdiqləmək üçün xeyrə, yararlılığa əməl etməlidir. Zülmə, fəsada yol verməklə çalışmaq, səy göstərmək insan kimliyinin süqutudur, kainat və məxluqat sisteminin məqsədlərinin toxunulmazlığını ləğv etməkdir.

**14. Gözəllik: həqiqət yoxsa xülya?**

İslah və abadlaşdırma anlayışlarının davamı olaraq mədəni Quran dünyagörüşündə gözəllik dəyəri haqqında danışmaq lazım gələcəkdir. Çünki gözəllik kainatın yaradılmasında özünü göstərmiş dəyərdir. İnsan bunu fitrən hiss edir. Həmçinin gözəllik həyatın maddi və mənəvi sahələrdə insan nəfsinin ehtiyacını ifadə edir. Kainatda olduğu kimi, Quranda da gözəllik mövcuddur. Allahın məxluqatı yaratmağını təsvir edən ayələrdə ifadə gözəlliyi vardır. Ayələr Allahın gözəl şəkildə yaratmağından, nemətlərdəki gözəllikdən söz açır.

Təəssüf ki, "özünüləğv" ritorikasının uzun müddətə islam ritorikasını sıxışdırıb meydandan çıxarması müsəlman fərdin könlündə özünütəsdiq ritorikasını, bununla da yaradılmadakı gözəllikdən həzz alma hissini tədricən məhv etmişdir.

Gözəllikdən, kainatdakı harmoniya və yaradıcı tablolardan həzz almaq fitridir, özünütəsdiqdir. Amma gözəlliyi sevən fitrət düzgün vasitələrlə təbii tələbatların təmin edilməsində çəkilən cızıqdan kənara çıxmamalıdır.

Yaşadığı dövrün problemlərinə baxmayaraq, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* nəfsləri rahatlatmağı tövsiyə edirdi. Çünki nəfs işlə yüklənərsə, yorulub usanar. Mədinəli müsəlmanlar toy mərasimi keçirmək istədikdə bəzi səhabələr etiraz etmək qərarına gəlirlər. Amma Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onlara izah edir ki, insan nəfsinin musiqinin gözəlliyinə qulaq asmaqla bir qədər dincəlməyə ehtiyacı vardır. Bu məqsədlə o, onlar üçün nəğmə qoşur, insanlar da onu təbil vurmaqla sevinərək, əylənərək oxuyurlar.

Həmçinin Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* həyat yoldaşı, möminlərin anası Həzrəti Aişə *(Allah ondan razı qalsın!)* ilə birlikdə Mədinəyə gəlmiş həbəşlərin xalq rəqsləri və oyunlarına tamaşa etmişdir.

Gözü baxmaq ləzzətindən, qulağı dinləmək həzzindən, xəyalı yaratma və qurma nəşəsindən məhrum etmək olmaz. Təbii ki, bu həzz və ləzzət şəriətin qoyduğu çərçivə daxilində olmalıdır.

Gözəllik dünyada insanı aldatmamalı, qəflətə salmamalıdır:

"(Ya rəsulum!) küfr edənlərin diyar-diyar gəzib dolaşması (ticarətdən, əkinçilikdən mənfəət əldə edərək xoş güzəran keçirməsi) səni aldatmasın! Bu, (axirət nemətləri ilə müqayisədə) azacıq bir mənfəətdir. Sonra isə onların məskəni Cəhənnəmdir. Ora necə də pis yataqdır!" (Ali-İmran, 196-197).

Beləliklə, gözəllik özünütəsdiqi düzgün şəkildə təmin edirsə, dünya və axirətdə insana nəşə verəcəkdir. Yox, əxlaqsızlıqla, pozğunluqla nəticələnəcəksə, aldadıcı ləzzət olacaqdır.

## Quran dünyagörüşü islahat və abadlaşdırmada əsas və stimuldur

Ümmətin Quran dünyagörüşünü geri qaytarmaq istəyiriksə, Peyğəmbər dövrünü, erkən islam tarixini, mədəni Quran dünyagörüşünün bu zaman kəsiminə təsirini diqqətlə öyrənməliyik. Bu tarixi dövrün, dünyagörüşü formasının nəticələrini, ümmətə necə istiqamət verdiyini də öyrənmək lazımdır.

Bununla yanaşı, müasir Qərb mədəniyyətinin məzmun və mahiyyəti Quran dünyagörüşü əsasında tədqiq edilməlidir. Qərb mədəniyyəti dinlərdən və vəhyin yolgöstərənliyindən imtina etmişdir. Bu o vaxt baş vermişdir ki, həmin dinlərin göndərildikləri xalqlarla əlaqəli missiyası işə yaramamış və bu dinlər təhrifə məruz qalmışlar. Nəticədə Qərb insanı dinləri həyatın bir küncünə atmış, materializmə əsaslanan mədəniyyət təsis etmişdir. Bu mədəniyyətdə əxlaqdan, ruhdan, mənəviyyatdan əsər-əlamət qalmamışdır. Bu mədəniyyət irqçiliyə, güc-

lünün hakimiyyətinə, sosial münasibət və davranışlarda əxlaqi dəyərlərin unudulmasına əsaslanır. Qərbdəki bu həyat ruhu olmayan bioloji varlıqların həyatını xatırladır.

Mənfi xüsusiyyətlərinə baxmayaraq, materialist Qərb mədəniyyəti yer üzündə varislik vəzifəsini maddi istiqamətdə icra etmişdir. Bu məqsədlə dünyəvi elmlərdən istifadə edən qərblilər materiyanı və fiziki qanunauyğunluqları əsas götürən elmi metoda əməl etmişlər. Belə metod varislik üçün lazım olan şərtlərdən biridir.

Əgər islam doğru-dürüst başa düşülərsə, mədəni Quran dünyagörüşü, düşünmə üslubu, anlayışları təhriflərdən, xurafatlardan təmizlənərsə, gənc nəslin tərbiyə metodikasında təshih aparılarsa, müasir dövr insanı onda xilas tapacaqdır. Beləliklə, bəşəriyyət öz mövcudluğunu təhdid edən konfliktlərdən, zülm və təhlükələrdən qurtulacaq, ədalət, xatircəmlik, əmin-amanlıq hökm sürəcəkdir.

Belə islahatçılıq vəzifəsi müsəlman mütəfəkkir və islahatçıların vəzifəsidir. Bunun üçün onlar obyektiv və səbirli olmalı, cəsarət göstərməlidirlər. Belə olarsa, problemləri həll edə biləcəklər.

## Mədəni dünyagörüşü və əxlaqi-bəşəri anlayışlar

Heç bir müsəlman Quranın, Sünnə və səhabə dövrünün ehtiva etdiyi əxlaqi anlayış və dəyərlərin zəngin xəzinəsini, yaxud klassik və müasir müsəlman mənbələrindəki “ləl-cəvahirat”ı diqqətdən qaçıra bilməz. Bununla yanaşı, müasir müsəlman cəmiyyətlərində gündəlik həyat və münasibətlərdə bu anlayış və dəyərlərin çoxu öz ifadəsini tapmamışdır.

Dəyər və anlayışlar hər hansı bir cəmiyyətin dünyagörüşünə funksionallıq kəsb etdirən vasitələrdir. Bu dünyagörüşü

təhrifə uğrayarsa, dəyər və anlayışlar təsirini itirəcəkdir. Çünki cəmiyyətin davamlılığının əsasını təşkil edən dünyagörüşü ilə konseptual əlaqəni itirmiş cəmiyyət üzvləri gündəlik həyatda və sosial münasibətlərdə həmin dünyagörüşünə uyğun hərəkət etmək üçün lazım olan ilham, stimul və məqsədyönlülükdən məhrum olurlar.

Aktiv və pozitiv cəmiyyət qurmaq üçün bu dəyər və anlayışları dirçəltmək, könüllərə aşılamaq, aktiv və əlaqəli qurumlarda tətbiq etmək lazımdır. Bütün bunlar mədəni cəmiyyət qurmaqda, tarix yazmaqda lazımlı addımlardır.

İslam dünyagörüşünü geri qaytarmasaq, ona sonralar sirayət etmiş təhrifləri aradan qaldırmasaq, prinsip, dəyər və anlayışlar aktiv hala gəlməyəcəkdir. Bu məqsədlə düşüncə, tərbiyə üsulunu, ritorika tərzini və könüllərini islah etmək lazımdır.

## Dünyagörüşü yoxdursa, suya təsvir çəkirik, demək

Məlum oldu ki, mədəni Quran dünyagörüşü səhabə nəslinə uğur gətirmiş və onlar Qurandan çıxış edərək mühüm mədəni-elmi və sosial nailiyyətlərə imza atmışdılar. Onu da öyrəndik ki, mədəni islam dünyagörüşündən ilham almaq üçün Qurana qayıtmaqdan imtina etmək ümmətin dünyagörüşünün saxtakarlıq və təhriflərə uğramağının səbəblərini bizə izah edir.

Ümmətin yenidən dünyagörüşünə, məqsədyönlülük, əxlaqilik və stimulluğa sahib olmağı üçün onun irsi və tarixini yaxşını pisdən, faydalını faydasızdan ayıra biləcək şəkildə səmimi və prinsipial, tənqidi tədqiqata təhkim etməliyik. Bunu edərkən tabular, qorxu, cəhalət, səs-küylü etirazlar bizə mane olmamalıdır.

Zəifliyimizin, stereotiplərimizin, anormallıqlarımızın təhsildə, tərbiyə və düşüncədəki forma və təsirlərinin öhdəsindən

gələ bilsək, Peyğəmbərin həyat və Quranı tətbiqetmə təcrübəsindəki müdriklikdən ilham alan, Qurana əsaslanan obyektiv, elmi, mədəni, universal dünyagörüşü formalaşdıra bilərik.

Bilik və elm hər kəsdən əvvəl mütəfəkkirlərə, alimlərə, ziyalılara, məktəb və müəllimlərə aid məsələdir. Tərbiyə və nəfsi, vicdanı, davranışları gözəlləşdirmək isə valideynlərin işidir. Bu, təbii ki, informasiya vasitələrinin, sosial mühitin təsirlərini istisna etmir. Amma bilik və tərbiyənin oynadığı rolları bir-biri ilə qarışıq salmaq, ailə və məktəbin daşıdığı məsuliyyətə laqeyd baxmaq olmaz.

Həyata ciddi yanaşmağın, müsəlman cəmiyyətini mədəni Quran dünyagörüşü əsasında təsis etməyin vaxtı çatmışdır. Bu o halda mümkündür ki, mütəfəkkirlər, islahatçılar, tərbiyəçilər və ailələr öz rollarını düzgün icra etsinlər: "Axtaran tapar"; "Yolla gedən yorulmaz".

## İctimai islam elmlərini və islam dünyagörüşünü necə təsis etmək olar?

Ayrıca olaraq, islam ictimai elmlərinin təsis edilməsi probleminə toxunmağımız çox mühümdür. Biz bu elmlər sayəsində islam fikrini yenidən dirçəldə bilərik. Bu da öz növbəsində islam dünyagörüşünü həyata keçirəcəkdir. Bununla da, biz biliyin islamlaşdırılması və bunun üsulları ilə əlaqəli mübahisə və təəccübə son qoya biləcəyik. Biliyin islamlaşdırılması probleminin dolaşıqlığı həm də ona görədir ki, islam ictimai elmlərinin təsis edilməsi probleminin qoyulmasında dolaşıqlıq vardır. Yəni, bu elmlərin məzmunu, vəzifəsi, bir tərəfdən, islam fikri və irsi ilə əlaqəsi, digər tərəfdən, müasir qərb ictimai elmlərinə münasibəti məsələləri tədqiq olunmayıb.

Bu dolaşıqlığı aradan qaldırmaq üçün əvvəlcə ənənəvi islam elmlərinin mahiyyəti və istifadə istiqamətlərini, daha sonra müasir ictimai elmlərin mahiyyətini müəyyən etməliyik.

Əvvəlcə, ənənəvi islam fikri və elmləri mövzusuna toxunaq. Məlumdur ki, bu fikrin (irsin) əsas tərəfini fiqh (hüquq) təşkil edir. Fiqh mahiyyət etibarı ilə qanun deməkdir və bu qanun ictimai münasibətləri tənzimləyən qaydaları formalaşdırır.

İslam fikrinə və fiqhlə əlaqəsinə hərtərəfli nəzər salsaq, görəcəyik ki, islam fiqhi Peyğəmbərin və Raşidi xəlifələrin dövründəki təcrübə əsasında meydana çıxmışdır. Fiqhin əsas məzmunu Peyğəmbər sünnəsi və təcrübəsindən, onun vəfatından sonra isə səhabə praktikasından ibarətdir.

Raşidi xilafətinin yıxılması, islam fəthlərinin səbəb olduğu vəziyyət, ərəb qəbiləçiliyinin hakimiyyəti ələ keçirməsi, Əməvilərin hakimiyyəti illərində meydana çıxan siyasi-ictimai və iqtisadi əyriliklər, ideoloji-siyasi təcrid və acizliyin artması nəticəsində hərfi-hərfinə qaydalar və hökmlər meydana çıxdı. Bu qayda və hökmlər elə düşüncə və praktikadan əmələ gəlmişdi ki, onların əksəriyyətinə sonrakı müsəlman cəmiyyətlərində rast gəlmək mümkün deyildir. Yəni, bu qaydaların, hökmlərin, qanunların çoxu indiki dövrdə heç harada rast gəlinməyən tarixi düşüncə və praktikanı ifadə edir.

Müasir qərb ictimai elmləri və biliyin islamlaşdırılması problemi ilə əlaqəsinə gəlincə... Biliyin islamlaşdırılması problemi islam ictimai elmlərinin problemi olub, məzmun və metodla əlaqəlidir. Bu iki məsələni (metod və məzmun) bir-birindən ayırsaq, məsələ aydınlaşacaq, ona daha səmərəli münasibət bildirmək mümkün olacaqdır.

Məsələni izah etmək məqsədilə, əvvəlcə, izah etməliyik ki, bilik və ictimai münasibətlər sahəsində sosial elmlərin vəzifəsi nədən ibarətdir.

İctimai elmlərin vəzifəsini müəyyənləşdirmək üçün prinsipial olaraq bilməliyik ki, bu elmlərin vəzifəsi və rolu islam fiqhininkindən fərqlənir. Çünki birincinin vəzifəsi daha böyük və genişdir. Bu ona görədir ki, ictimai elmlərin vəzifəsi ma-

hiyyət etibarı ilə mədəni dünyagörüşü əsasında cəmiyyəti öyrənməkdir. Bu o deməkdir ki, islam ictimai elmlərinin vəzifəsi cəmiyyətdə ictimai fikir istehsal etməkdir. Bununla da o, elə bir fikri material təqdim edir ki, islam hüququ onun əsasında qaydalar təsis edir. Yəni, fiqhin vəzifəsi formal vəzifədir. İctimai elmlərin vəzifəsi isə fikridir. Hər iki sahə ümmətə xidmətdə, mədəniyyətinin qurulmasında eyni quşun qanadlarını əmələ gətirirlər.

Sual yaranır: Müasir qərb ictimai elmləri ilə biliyin islamlaşdırılması və islam ictimai elmlərinin yaradılması problemi harada və necə kəsişir?

Məlumdur ki, Qərb ictimai elmlərinin ideya məzmunu subyektiv qərb dünyagörüşünə əsaslanır. Qərb dünyagörüşü isə mahiyyət etibarı ilə materialist olub, dinlərin təsiri və rolunu rədd edir. Lakin Qərb ictimai elmlərinin obyektiv tərəfləri də vardır. Belə ki Qərbdə ictimai elmlər insan fitrəti və xarakterini, real gerçəkliklə əlaqəsinin düzgün qurulmasını öyrənir. Qərblilər öz dünyagörüşlərindən irəli gələn məqsədlərə çatmaq üçün insan fitrətindən, ondakı vasitə və həll tapmaq, problemlərlə mübarizədə qurumlar yaratmaq imkanlarından necə istifadə etməyin yollarını axtarırlar.

Biz Qərb ictimai elmlərinin obyektiv tərəflərindən, bir çox nailiyyətlərindən istifadə etməliyik.

Sual: Fitrəti və ictimai, həm də fiziki qanunauyğunluqları öyrənmək anlayışına müraciətdə Qərbdən asılıyıqmı, öz mədəni dünyagörüşümüzə tərs düşən nəyisə Qərbdən idxal etmirik ki?

Bilirik ki, bu doğru deyildir. Çünki islamın meydana çıxmağı ilə yeni günəş doğmuş, elm və universallıq üçün perspektivlər yaranmışdır. İslam öyrənməyə, düşünməyə, mühakiməyə təşviq edən dindir. İslam mədəniyyəti ilə elmi araşdırma və fiziki qanunauyğunluqları öyrənmə dövrü başlanmışdır. İslam-

la təmasa girməzdən əvvəl vəhşi Qərb elm və hüquq, qanunauyğunluqlar nədir bilmirdi. Qərb sosial elmləri öz başlanğıcını qanunauyğunluqları öyrənən müsəlman alimlərin elmi təfəkküründən götürmüşdür.

Müsəlmanlar ilk dəfə olaraq insan fitrətini, kainatdakı ilahi qanunauyğunluqları öyrənmişdilər. Amma ümmətin başına gələn erkən büdrəmələr bu prosesi ləngitmiş, bəşəriyyəti uzun əsrlər boyu ədalət, əmin-amanlıq və sülh dünyagörüşünü reallaşdıracaq elm və universallıq (ümumbəşərilik) məsələlərində islamın yolgöstərənliyindən məhrum etmişdir.

Yuxarıda qeyd olunanlar göstərir ki, müsəlman fərd aşağıdakıları etməlidir:

1. Təqlid və yamsılama zehniyyətindən xilas olmalı, özünü universal, analitik, elmi, tənqidi və yaradıcı təfəkkürlə silahlandırmalıdır;

2. Özünü mədəni Quran dünyagörüşü, anlayışları, dəyər və prinsipləri əsasında yetişdirməlidir;

3. İnsan fitrətini, fiziki qanunauyğunluqları, reallığı, zaman və məkana uyğun potensial və imkanları öyrənməlidir;

4. İslam irsindən, müasir obyektiv elmi nailiyyətlərdən istifadə etməlidir.

Fikrimizcə, biliyin islamlaşdırılması, islam ictimai elmlərinin təsis edilməsi, müasir müsəlman ictimai fikrinin forması elmin müxtəlif sahələrində alim və tədqiqatçıların etdiklərindən fərqlənmir.

Bizdən tələb olunan şey mədəni Quran dünyagörüşünü açıb göstərməkdir.

# Beynəlxalq İslam Fikri İnstitutunun xidmətləri

Beynəlxalq İslam Fikri İnstitutunda həyata keçirilmiş bir çox elmi tədqiqatlardan istifadə etmək mümkündür. Elmi tədqiqat mərkəzləri, islam sosiologiyası və metodologiyasına dair tədqiqatlarla maraqlan hər kəs institutun elmi məhsulunu öyrənib inkişaf etdirə, bununla da, islam fikri sahəsində ciddi elmi fəaliyyətə təkan verə bilər.

Beynəlxalq İslam Fikri İnstitutu növbəti illərə dair proqramında islam ictimai elmləri metodologiyası və islam dünyagörüşü problemlərinin açıb göstərilməsini məqsəd güdən akademik yaradıcılıq və təlim sahəsində daha çox iş görməyi planlaşdırır.

Beynəlxalq İslam Fikri İnstitutunun ali təhsil metodikasının yaxşılaşdırılması istiqamətində atdığı ən böyük addım Malayziya İslam Universiteti nümunəsidir. Burada vəhyi biliklər və humanitar elmlər fakültəsində əsas və ikinci dərəcəli ixtisasın öyrədilməsi metodikası tətbiq edilir. Belə ki islam tədqiqatları istiqaməti iki ixtisasdan birini əmələ gətirir. Bir il əlavə oxumaqla ikinci dərəcəli ixtisası da mənimsəmiş məzun iki bakalavr dərəcəsi əldə edir: birincisi islam tədqiqatları, ikincisi isə ictimai və ya humanitar elmlərindən biri üzrə.

Belə bir sistem böyük uğur qazanmış, islam dünyagörüşünü, bəşəri-mədəni proseslərdə ümmətin mədəni rolunu yaxşı başa düşən keyfiyyətli məzunların yetişdirilməsinə xidmət etmişdir. Həmçinin bu məzunlar öz ixtisaslarında çox bacarıqlıdırlar.

Malayziya Beynəlxalq İslam Universitetinin nailiyyətlərində biri də qərbşünaslıq fənninin keçirilməsidir. Bu fənnin məqsədi Qərb mədəniyyətini, müsbət və mənfi tərəflərini öyrənən mütəxəssislər yetişdirməkdir.

Bununla yanaşı, “Ailə və valideynlik”, “Yaradıcı təfəkkür və problemləri həll” fənləri tədris olunur. “Mədəniyyətlərin qurul-

ması və tənəzzülü" adlı fənnin keçirilməsi də təklif olunub. Biliyin islamlaşdırılması modelini tətbiq etmək üçün Beynəlxalq İslam Fikri İnstitutunun proqramları çərçivəsində müxtəlif elmi qruplar fəaliyyət göstərir.

Fiziki-texniki elmlərə gəlincə, onlarla birlikdə islam tədqiqatları metodunun tədrisi yaxşı addım olardı. Bununla da, tələbə sonralar biliklərini genişləndirmək istədikdə əsas anlayışlara, bünövrəyə sahib olacaqdı.

Elmli, vicdanlı, mədəni nəsillər yetişdirmək üçün Beynəlxalq İslam Fikri İnstitutunun tədris proqramı layihəsindən istifadə mümkündür. Bununla da, seçilmiş müsəlman kadr və liderlər yetişəcək, islamın mədəni missiyası gerçəkləşəcəkdir.

## SON SÖZ

Universitet müəllimlərinin, ixtisaslı kadrların, universitet və qeyri-universitet mərkəzlərinin diqqətini ona çəkmək istəyirik ki, bir çox yazıçı və mütəfəkkirin əsərlərində əsas problemlərə toxunan, həll yolları göstərən anlayış və terminlərdən söz açılır. Əgər mütəxəssislər bu terminləri praktik həyata tətbiq etməyin yolları və vasitələrini işləyib hazırlamasalar, həmin terminlər kağız üzərində qalacaq, cəmiyyətin real həyatına təsir göstərməyəcəkdir.

Ümid edirik ki, mütəxəssislər bu istiqamətdə öz güclərini birləşdirəcək, ümmətə onun düşüncəsini, metodologiya və qurumlarını yeniləyəcək praktik üsullar təqdim edəcəklər.

Bəzi konseptual problemləri real həyata tətbiq etmək, ideoloji-elmi variantları (alternativləri) müəyyənləşdirmək üçün əlimizdən gələni etmişik. Əslində etdiyimiz həyata keçirilməsi, təkmilləşdirilməsi lazım olan nümunələrdir. Bu nümunələr əsasında akademik araşdırmalar aparılmalı, həyatın bütün sahələrində onların elmi-praktik tərəfləri izah olunmalıdır.

**Beynəlxalq İslam Fikri İnstitutunun müxtəsər kitablar seriyası** institutun əsas nəşrlərinin ixtisarla verilmiş variantlarından ibarətdir. Məqsəd oxucuda orijinalın əsas məzmunu haqqında ümumi təsəvvür yaratmaqdır. Genişhəcmli nəşrlərin icmalı hesab olunan bu əsərlər oxunaqlıdır, vaxta qənaət etməyə imkan verir, oxucunu gələcəkdə orijinalla tanış olmağa həvəsləndirir.

Əbdülhəmid əbu Süleymanın "Mədəni Quran dünyagörüşü: mədəni islahatçılığın əsası" kitabı 2011-ci ildə nəşr edilmişdir.

Tutarlı müddəaların toplandığı bu əsərdə İslam dünyasının tənəzzülü, müsəlmanların nəzərində Quran dünyagörüşünün zəifləməsi səbəbləri və bu tənəzzülün aradan qaldırılması yolları öyrənilir. Az adam tapılar ki, müəllifin diaqnozu ilə razılaşmasın. Müəllif haqlı olaraq göstərir ki, istənilən həqiqi və davamlı dəyişiklik üçün Quran dünyagörüşünün dirçəldilməsi olduqca zəruridir. Məhz bu gerçəkliyi nəzərə almaqla, Quran və Sünnənin prinsiplərinə əməl etməklə ilk müsəlman cəmiyyəti təsiri bu gün də hiss olunan uğurlara imza atmışdı. Müsəlmanlar uzun müddətdir ki, düşdükləri vəziyyətin fərqindədirlər. Müəllif təkidlə qeyd edir ki, Quran dünyagörüşü əsasında müsəlman kimliyinin yenidən formalaşdırılması dövrümüzün əsas tələbi, Müsəlman ümmətinin gələcəkdə davamlı inkişafının başlıca şərtidir.

Beynəlxalq İslam
Fikri İnstitutu

9 789952 844511